Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

4-6 MAY 2019-cu il

№ 80 (3978)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# GÜRCÜSTAN RƏHBƏRLİYİNDƏN EYNİ SƏRHƏD PROBLEMİNƏ GÖRƏ AZƏRBAYCANA VƏ ERMƏNİSTANA FƏRQLİ SİYASƏT...

■ səh. 7 ■

"Bakı Prosesi" Qarabağ münaqişəsinin həllində də Azərbaycana yeni üstünlüklər qazandırır... ■ səh. 9 ■

Avrasiya Birliyinin İrəvan iclasında rüsvayçı naşılıq - beynəlxalq tədbirlərin təşkilində Azərbaycan və Ermənistan nümunələri... ■ səh. 6 ■

Milyarderlə "məxməri" Baş nazirin çəkişməsi Ermənistanı yeni inqilaba sürükləyir ■ səh. 10 ■

Ümumdünya mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfələri... ■ səh. 6 ■

Aqrar sahəmizin sığorta dərdi - bu sığorta növünün cəmi 0,2 faiz payı var... ■ səh. 11 ■

Müğənni Elnarədən "Baku Medical Plaza"ya ağır ittihamlar - klinikanın cavabı necə oldu? ■ səh. 13 ■

2012-ci ildə qeyri-neft ixracı 1,9 milyard, 2018-ci ildə 1,6 milyard dollar - azalma, ya... ■ səh. 11 ■

Qoruqların ərazisindəki tarixi abidələrin pasportlaşdırılmasının hansı ümummilli əhəmiyyəti olacaq? ■ səh. 15 ■



■ səh. 5 ■

## Azərbaycanyönümlü yox, qərbyönümlü partiya - xarici siyasi oriyentasiya Əli İnsanov üçün uğur şərti sayıla bilərmi...





Dünya Azərbaycan diasporunda maraqlı proseslər - Dövlət Komitəsi işin harasında... ■ səh. 8 ■

Bakıdakı bəzi «novostroyka» mənzillərdə «seks turizmi» biabırçılığı - xəbər parlamentə də çatdı... ■ səh. 13 ■

Bakıda mütəşəkkil dilənçi mafiyası - itkin düşmüş uşaq dilənçiliyə məhkum durumda tapıldı... ■ səh. 12 ■

■ səh. 4 ■ Vilayət Eyvazov polisin insan alveri ilə mübarizədə dəhşətli cinayət planlarının üstünü açdığını bildirdi



■ səh. 7 ■ Ermənistan dünyada etiraf edilmiş daha bir terrorçunu milli qəhrəman kimi əbədiləşdirir...



■ səh. 5 ■ Avropa Məhkəməsinin siyasi işlər barədə qərarlarını gəlir mənbəyinə çevirmiş ayrıca zümrə yaranmağa başlayır...



■ səh. 4 ■ Tikinti şirkətlərində müqaviləsiz işlədilən cəmi 1115 fəhlə? - Reallığın izi ilə...



■ səh. 14 ■ İnsan alveri cinayətinin kökünü tam kəsmək mümkünmü - Azərbaycan mühitində...



## Prezident İlham Əliyev Braziliya Milli Konqresi Deputatlar Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev mayın 3-də Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Baki-xeber.com-un xəbərinə görə, Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayaraq, yüksək səviyyəli səfərlərin əməkdaşlığın müxtəlif sahələri ilə bağlı fikir mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirib və parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini deyib. Prezident İlham Əliyev Braziliya nümayəndə heyətinin böyük tərkibdə Azərbaycana səfərindən məmnunluğunu bildirərək, iqtisadi, sərmayə qoyuluşu, turizm, mədəniyyət, kənd təsərrüfatı, aviasiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edib. Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Maya qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək qeyd edib ki, yüksək səviyyəli qarşılıqlı səfərlər əməkdaşlığımızın inkişafında mühüm rol oynayır və parlamentlərarası əlaqələr xalqlarımızın bir-birini daha yaxşı tanımasına xidmət edir. Qonaq ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi, ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın olduğunu deyib. Söhbət zamanı BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlığın önəmi qeyd olunub.

## Elmar Məmmədyarov Dünya Forumunda işğalçı Ermənistanı ifşa etdi

*"Ermənistanın özündə ölkənin gələcəyinə inanmırlar..."*

**Sürətlə dəyişən dünyada terrorçuluğun, xarici təhdidlərin, münaqişələrin artması fonunda beynəlxalq təhlükəsizliyin təmin olunması vacib məsələdir və bunun həlli üçün regional dövlətlər, beynəlxalq təşkilatlar, o cümlədən BMT Təhlükəsizlik Şurası səy göstərir.**



Baki-xeber.com xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov 5-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən "BMT sistemində sülh naminə çoxtərəflilik və diplomatiyanın gücləndirilməsi" sessiyasında çıxışı zamanı deyib. O qeyd edib ki, həll olunmamış çoxillik münaqişələr regionun sabitliyi və təhlükəsizliyinin qorunmasına mane olur: "Dağlıq Qarabağ münaqişəsi hələ də Cənubi Qafqazda regional təhlükəsizliyin təmin olunmasına əsas təhdiddir. BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən qətnamələrinə baxmayaraq, Ermənistanın işğal siyasəti davam edir. Bununla belə, Ermənistanı özgə torpaqları işğal altında saxlamaqla ölkə daxilində heç bir nailiyyət əldə etməyib. Ölkə bu gün miqrasiya, yoxsulluq, işsizlik və bunun nəticəsi olaraq zəif iqtisadiyyat və aşağı sosial göstəricilərə görə ön sıralardadır". E.Məmmədyarov bildirib ki, Ermənistanın hər hansı bir dayanıqlı inkişafa nail olacağı barədə danışmaq yersizdir: "Ölkədə vəziyyət elədir ki, artıq Ermənistanın özündə gələcəyə inanmırlar. Əhalinin ölkəni sürətlə tərk etməsi də bununla izah olunur". Nazirin sözlərinə görə, Ermənistanda müəyyən mənada erməni diasporunun dəstəyinə ümid edirlər, amma yalnız bu diasporun vəsaitləri hesabına dayanıqlı inkişafı təmin etmək qeyri-mümkündür: "Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasının tərəfdarıyıq və hesab edirik ki, bu məsələ beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycan sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünün təmin olunması şərti ilə həll olunmalıdır".

## Məktəb çantaları ağırdısa, kitabların çəkisini aşağı salaq - Milli Məclisdə şagird çantalarının ağır olması məsələsi qaldırılıb və maraqlı çıxış yolu təklif edilib...

**Milli Məclisdə orta məktəb şagirdlərinin çantalarının ağır olması məsələsi qaldırılıb.**

"Trend"in məlumatına görə, bu məsələ ilə bağlı parlamentin mayın 3-də keçirilən plenar iclasında millət vəkili Aqil Abbas çıxış edib.

Deputat deyib ki, çantaların ağır olması səbəbindən uşaqların onurğa sistemi sıradan çıxacaq: "Kitablar elə hazırlanmalıdır ki, yüngül olsun. Uşaqları bu qədər yükləmək olmaz. Yeni tədris ilindən bu məsələ həllini tapmalıdır".

Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli isə deyib ki, bu məsələ ilə bağlı hazırda müzakirələr aparılır.

# Prezident İlham Əliyev I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsini dövlətin üstünə götürdü



**Prezident İlham Əliyev I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019/2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödənilsin.

Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Qondarma "DQR"in "nazirinin" Argentina turnesi görünməmiş rüsvayçılıqla bitdi...

**Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) erməni mətbuatında qondarma separatçı rejimin "xarici işlər nazirinin" Argentinada görüşlər keçirməsi ilə bağlı yayılan məlumata münasibət açıqlayıb.**



XİN Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma separatçı rejimin "nümayəndəsi"nin Argentinaya səfəri ilə bağlı erməni mətbuatında yayılmış məlumatlar qanunsuz rejimin təşviqinə hesablanıb və özünü aldatmaqdan başqa bir şey deyildir.

Nazirlik bəyan edir ki, Argentinanın erməni icmasının Buenos Ayres Universitetinin Hüquq fakültəsində təşkil etdiyi uydurma "erməni soyqırımı"na həsr edilmiş tədbirlərdə iştirak edən separatçı rejim nümayəndəsi Argentinada hər hansı ölkə rəsmisi ilə görüşə nail olmayıb.

Bundan əlavə, Argentinanın "Erməni İnstitutları" adlı təşkilatı Argentina Xarici İşlər və Etiqad Nazirliyinin 24 aprel 2019-cu il tarixində dövlət qurumlarına ünvanladığı notanı dərc edərək öz dərin narahatlığını ifadə edib. Belə ki, Argentina Xarici İşlər və Etiqad Nazirliyi sözügedən notasında Argentinanın BMT Nizamnaməsinin 2-ci maddəsində əks olunmuş, digər dövlətin daxili işinə qarışmama və dövlətin ərazi bütövlüyünə hörmət prinsipinin suveren dövlətlər arasında münasibətlərin, həmçinin beynəlxalq sülh və təhlükəsizliyin fundamental sütunu hesab etdiyini və bu səbəbdən, Argentina Respublikasının öz müstəqilliyini elan etmiş "Dağlıq Qarabağ Respublikası" və ya "Artsax"ı beynəlxalq hüquq çərçivəsində müstəqil və suveren dövlət kimi tanımadığını vurğulayır. Bununla əlaqədar, Dağlıq Qarabağın "xarici işlər naziri"ni qəbul etməmək və onunla rəsmi görüşlər keçirməmək tövsiyə olunur.

Göründüyü kimi, separatçı rejimin "nümayəndəsi" qanunsuz işğalçı rejimin beynəlxalq ictimaiyyət, o cümlədən Argentina tərəfindən tanınmadığının şəxsən şahidi olub.

Həmin tarixlərdə Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzo ilk dəfə olaraq ölkəmizdə rəsmi səfərdə olub və keçirdiyi bütün görüşlərdə Argentinanın yuxarıda qeyd olunan mövqedən çıxış etdiyini və ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bəyan edib.

# Azərbaycanda "qara transplantoloq" cinayətkarlar yaxalanıb



**İnsan orqanlarının alveri həm Azərbaycanda, həm də xaricdə yayılmaqdadır.**

"Trend"in məlumatına görə, bunu deputat Elmira Axundova Milli Məclisin mayın 3-də keçirilən plenar iclasında Azərbaycanın İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorunun illik məlumatının müzakirəsi zamanı deyib.

Deputat qeyd edib ki, bu yaxınlarda ölkəmizdə "qara transplantoloqlar" yaxalanıb, cinayət məsuliyyətinə cəlb olunub: "Onlar bir neçə imkanı zəif olan insanı təhrik ediblər ki, öz orqanlarını satsınlar, qanunsuz əməldə iştirak etsinlər. Bu sahəyə nəzarəti daha da gücləndirmək lazımdır".

# Umumdünya Mətbuat Azadlığı Günündə Azərbaycan və dünya mətbuatının vəziyyəti müzakirə olundu...

## *Dünyada mətbuatın kriminal qrupların, ayrı-ayrı şəxslərin nəzarətində olduğu nümunələr var, Azərbaycanda isə...*

**Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə 3 may Ümumdünya Mətbuat Azadlığı Gününə həsr olunmuş "Mətbuat azadlığı: bəşəri mahiyyət və Azərbaycan reallıqları" mövzusunda konfrans keçirilib. Konfrans iştirakçıları əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin və milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin məzarını ziyarət ediblər.**

II Fəxri Xiyabanda 2005-ci ildə qətlə yetirilmiş "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun da məzarı ziyarət olunub.

Toplantını giriş sözü ilə Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov açaraq, 3 may Ümumdünya Mətbuat Azadlığı Gününün yaranma tarixi ilə bağlı geniş məlumat verib. O bildirib ki, "soyuq müharibə" başa çatdıqdan sonra planetin siyasi mənzərəsi ciddi şəkildə dəyişdi. 1989-cu ilin noyabrında YUNESKO-nun Baş Konfransı kommunikasiya sahəsində yeni strategiya qəbul etdi. Bu strategiya informasiyanın sərbəst yayımını, inkişaf etməkdə olan ölkələrin kommunikasiya imkanlarının artırılmasına yardım göstərməyi nəzərdə tuturdu. 90-cı illərdə Şərq-Qərb mətbuat nümayəndələrinin görüşünün keçirilməsi təklif olundu. Görüş 1990-cı ilin fevralında gerçəkləşdi. Orada Mərkəzi və Şərqi Avropa ölkələri ilə yanaşı, Qərbi Avropa və Şimali Amerikadan gəlmiş 80-ə yaxın jurnalist və redaktor iştirak etdi. Toplantı Mərkəzi və Şərqi Avropada demokratik proseslərin inkişafına BMT-nin töhfəsi idi. Görüşdə jurnalistlərin fəaliyyətlərini yeni şəraitə uyğun qurmaları, Şərqlə Qərb arasında informasiya mübadiləsinin inkişafı zərurəti müzakirəyə çıxarıldı. Müzakirələr mətbuatın müstəqilliyi, plüralizm və söz azadlığı prinsiplərinin bütün dünyada bərqərar olunması üçün geniş tədbirlər proqramının meydana çıxmasını şərtləndirdi.

Ə.Amaşov çıxışında onu da bildirib ki, 1991-cı ilin mayında Namibiyanın paytaxtı Vindhukda keçirilmiş seminarın iştirakçılarının qəbul etdiyi bəyannamə Afrikada mətbuat azadlığının qorunmasına, müstəqil və plüralist informasiya vasitələrinin inkişafına zəmin yaratdı. YUNESKO-nun Baş Konfransı özünün 26-cı sessiyasında BMT-nin Baş Məclisindən 3 may 1991-ci il Vindhuk Bəyannaməsinin ildönümünü keçirməyi və may ayının 3-nü "Ümumdünya Mətbuat Azadlığı günü" kimi rəsmiləşdirməyi təklif etdi. Məclis 1993-cü ildə həmin təklifi nəzərə alaraq 3 may tarixini "Ümumdünya Mətbuat Azadlığı Günü" olaraq təsdiqlədi.

Azərbaycanda da hər il 3 may tarixinin ölkənin media cameəsi tərəfindən geniş şəkildə qeyd edildiyini diqqətə çatdıran MŞ sədri vurğulayıb ki, həm media sahəsində qəbul edilmiş qanunvericilik, həm jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına, həm də redaksiyaların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönələn tədbirlər ölkəmizdə mətbuat azadlığına həssas yanaşıldığının, ona xüsusi dəyər verildiyinin bariz nümunəsidir və buna görə hazırda mediamız bölgədə lider mövqeyə malikdir. Ə.Amaşov Azərbaycanda media azadlığı ilə bağlı problemlərin də mövcudluğunu dilə gətirib və bildirib ki, ümumən medianın başlıca çətinliyi onun iqtisadi cəhətdən özünü maliyyələşdirmək imkanlarının məhdudluğudur. Mövcud amil qeyri-peşəkarlıq meyllərinin nəzərə çarpmasını da şərtləndirməkdədir.

MŞ sədri çıxışında "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətlinə də diqqət yetirib və bildirib ki, 2005-ci ildə baş vermiş bu faciə ölkəmizdə söz və mətbuat azadlığına qarşı böyük hücum idi. Qətli törədənlərin tapılıb məsuliyyətə cəlb olunmalarının vacibliyini vurğulayan Ə.Amaşov hüquq-mühafizə orqanlarını bu istiqamətdə aktiv olmağa çağırıb.

MŞ İdarə Heyətinin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu söz və mətbuat azadlığının Azərbaycan üçün böyük nemət olduğunu bildirib. Azadlıq anlayışına fəlsəfi nöqteyi-nəzərdən yanaşan, onu mənəvi tələbat olaraq dəyərləndirən baş redaktor vurğulayıb ki, jurnalistika cəmiyyət üçün həyati əhəmiyyət daşıyan və geniş sərhədlərə malik söz azadlığının yaşadılmasında müstəsna missiya daşıyan institutdur. Ölkəmizdə bu missiyaya həm ictimai, həm də dövlət idarəçiliyi baxımından məxsusi yanaşılır.

MŞ sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu çıxışında söz və mətbuat azalığı ilə bağlı beynəlxalq miqyasdakı vəziyyət barədə söz açıb. O, diqqəti bu azadlığı təhdid edən meyllərə çəkib və əsasən dezinformasiyalar üzərində dayanıb. U.Rəhimoğlu məsələnin BMT səviyyəsində dəfələrlə geniş müzakirəyə çıxarıldığını bildirib və əlavə edib ki,






dünyada konfliktlərin çoxaldığı indiki dövrdə söz və mətbuat azadlığının reallığı və həqiqətləri bəyan edən vasitə kimi əlahiddə statusda daha real şəkildə qəbulu mütləqdir.

Dağlıq Qarabağ münaqişəsində işğalçı Ermənistan tərəfindən 6 azərbaycanlı jurnalistin qətlə yetirildiyini bildirən MŞ İdarə Heyətinin üzvü Azər Həsrət münaqişənin söz azalığına basqı mahiyyətini də qabardıb. Azərbaycan əsgəri tərəfindən nəinki erməni jurnalistinə, ümumən heç bir jurnalistə güllə atılmadığını deyən A.Həsrət eyni zamanda diqqəti söz və mətbuat azadlığından manipulyasiya məsələlərinə yönəldib. O bildirib ki, Dağlıq Qarabağda erməni terrorunun qurbanı olmuş jurnalist Osman Mirzəyevin qızı Sevinc Osmanqızı söz azadlığı prinsiplərindən Azərbaycan əleyhinə sui-istifadə ilə məşğuldur və bu, kifayət qədər ziddiyyətli məqamdır. A.Həsrət jurnalist E.Hüseynovun qatillərinin tapılaraq qanunlar qarşısında məsuliyyətə cəlb olunmalarının vacibliyindən söz açarkən jurnalistin qətlinin siyasi məqsədlər və müxtəlif qrant maxinasiyaları üçün alətə çevrilməsinin yolverilməzliyini vurğulayıb.

MŞ İdarə Heyətinin üzvü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid müasir mediada söz azadlığının ifadəsi üçün zəruri sayılan baxışların dəyişdiyindən söz açıb. Bu xüsusda nəzərə çarpan qeyri-ciddi mövzulara müraciət tendensiyasının nəinki ölkəmizdə, eləcə də bütün dünyada xarakterikliyini əsaslandırıb. Belə bir mühitdə söz azadlığının gerçək mahiyyətinin deyil, bəzən reallıqlardan kənar mülahizələrin cəlbedici olduğunu vurğulayıb. O, Azərbaycan jurnalistlərinin bütün bunları nəzərə alaraq fəaliyyət göstərməsinin arzulanan olduğunu deyib.

MŞ İdarə Heyətinin üzvü, "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev çıxışında bildirib ki, Azərbaycanda mətbuatla dövlət arasında anlaşma mühiti mövcuddur. Bu mühit jurnalistikamızın, dünyanın bir sıra ölkələrində olduğu kimi, müxtəlif kriminal çevrələrin, siyasi qrupların əlində manipulyasiya predmetinə çevrilməməsinin təminatıdır. A.Quliyev mediamızın problemlərini də sadalayıb və vurğulayıb ki, əsas olan problem və çətinlikləri aradan qaldırmaq iradəsinin, qətiyyətin və düzgün müəyyənləşdirilmiş strategiyanın olmasıdır.

Müasir dünyada söz və mətbuat azadlığı prinsiplərinə yeni baxışların diqqət çəkdiyini vurğulayan MŞ İdarə Heyətinin üzvü, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli bu durumda həmin dəyərlərin təhdidə məruz qaldığını da xarakterik cəhət kimi önə çəkib. Yeni dövrün çağırışlarında söz azadlığındakı sərhədlərin çox incə şəkildə müəyyənləşdiyini bildirən baş redaktor Azərbaycan jurnalistlərinin də tələblərə uyğun, peşəkarlıq meyarlarını qoruyaraq universal şəkildə fəaliyyət göstərmələrinin zəruriliyini əsaslandırıb.

"Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu 3 may Ümumdünya Mətbuat Azadlığı Gününün yalnız media ictimaiyyəti deyil, bütövlükdə cəmiyyət üçün böyük əhəmiyyət daşıdığını deyib. O, həmçinin bildirib ki, bu günün mahiyyətinə diqqətin artırılması məqsədilə müxtəlif festivallar da təşkil olunmalıdır.

MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli bildirib ki, dünyanın aparıcı dövlətlərini söz azadlığının bir dəyər kimi müdafiəsinin vacibliyi məsələsi ciddi şəkildə düşündürməkdədir. Bu xüsusda sosial şəbəkələrdə və digər resurslarda yayımlanan feyk xəbərlərdən qorunmaq üçün ənənəvi medianın rolunun artırılması üzərində dayanılır. M.Ələsgərli ölkəmizdə də buna diqqət yetirilməsinin zəruriliyindən söz açıb və əlavə edib ki, məsələ peşəkar jurnalistləri düşündürməli, onlar mövcud istiqamətdə bütün imkanlarını səfərbər etməlidir.

Ümumən konfrans iştirakçılarının yekdil fikri bundan ibarət olub ki, söz və mətbuat azadlığı prinsiplərinin qorunması işində səmərəlilik artırılmalı, həmin prinsipləri hər hansı şəkildə təhdid edən, təhdid şübhəsi yaradan meyllərə qarşı mübarizə gücləndirilməlidir. Bu baxımdan bir sıra məqamlara diqqətin yetirildiyi konfransda jurnalist Elmar Hüseynovun qətlində günahkarların layiqli cəzalarını hələ də almamaları təəssüf doğuran hal kimi vurğulanıb. Tədbirdə ələqədar qurumlara bu istiqamətdə ciddi fəaliyyət göstərmək çağırışı səslənib.

**Milli Məclisin mayın 3-də keçirilən plenar iclasında Azərbaycanın İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorunun illik məlumatı dinlənib. "Trend"in məlumatına görə, hesabatı Milli Koordinator, Daxili işlər nazirinin birinci müavini Vilayət Eyvazov təqdim edib. V.Eyvazov deyib ki, ötən il həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə 144 insan alveri cinayəti qeydə alınıb, 28 nəfərdən ibarət 13 cinayətkar qrup zərərsizləşdirilib, barəsində axtarış elan olunmuş 51 təqsirləndirilən şəxsdən 66,6 faizi və ya 34-ü tutulub.**



# Vilayət Eyvazov polisin insan alveri ilə mübarizədə dəhşətli cinayət planlarının üstünü açdığını bildirdi

## *13 cinayətkar qrup ifşa edilib...*

O qeyd edib ki, insan alveri və məcburi əmək cinayətlərinə görə başlanmış cinayət işlərindən 27-nin istintaqı tamamlanaraq 34 təqsirləndirilən şəxs (29-u qadın, 5-i kişi) məhkəmə məsuliyyətinə verilib, 23 insan alverçisi barədə ittihamedici hökmlər çıxarılıb: "Müəyyən edilən 98 insan alveri qurbanından (82 qadın və 16 kişi, hamısı Azərbaycan Respublikasının vətəndaşı) 71-i istismar məqsədilə Türkiyə Respublikası, 20-si Rusiya Federasiyası, 3-ü İran İslam Respublikasına aparılıb, 2-si isə Birləşmiş Ərəb Əmirliklərində, 1-i Malayziyada, 1-i isə Azərbaycanda istismara məruz qalıb. Zərərçəkənlərdən 95-i Daxili İşlər Nazirliyinin sığınacağına yerləşdirilərək hər birinə tibbi, psixoloji, hüquqi yardımlar göstərilib, 61-i sosial xidmətlərlə əhatə olunması məqsədilə qeyri-hökumət təşkilatlarına, 92-si Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İnsan alveri qurbanları üçün Yardım Mərkəzinə istiqamətləndirilib. Nəticədə onlardan 32-si işlə təmin edilib, 46-sı peşə kursuna göndərilib, 69-u ailələrinə qaytarılıb, eləcə də hər birinə 400 manat məbləğində birdəfəlik müavinət ödənilib. Qurbanların övladları da diqqət mərkəzində saxlanaraq, 25 uşaq məktəbəqədər təhsil proqramına yönəldilib, 16-nın atalığı müəyyən edilərək alimentlə təmin olunması, 13-nə lazımi sənədlərin alınmasında köməklik edilib. Xarici ölkələrdə əmək fəaliyyəti, təhsil, əcnəbilərlə nikah, məişət zorakılığı, miqrantların müvəqqəti qeydiyyatı, övladlığa götürmə və digər məsələlərlə bağlı "152 saylı Qaynar xətt" telefon xidmətinə daxil olan 6 310 müraciət araşdırılaraq qanunauyğun ölçülər götürülüb, təşəbbüskarlara zəruri izahlar verilib".

Milli Koordinator məlumat verib ki, həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə ötən il respublika üzrə 4 məcburi əmək faktı müəyyən edilib: "Aparılan araşdırmalarla 16 qurbandan 15-nin ölkə xaricində, birinin respublikada tikinti sahəsində istismar edildiyi məlum olub. Hər bir fakt üzrə istintaq araşdırmaları aparılaraq təqsirkar şəxslər məhkəmə məsuliyyətinə verilib. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən aparılan monitorinqlərlə 79 tikinti obyektində 946 nəfərin əmək və ya xidməti (mülki) müqavilə olmadan çalışdığı aşkar edilib. Yol verilən pozuntularla bağlı 6 işəgötürən təşkilat barədə Respublika Prokurorluğu tərəfindən cinayət işləri başlanıb, 35-i haqqında 527 min manat həcmində inzibati cərimə, 27-si barədə 468 min manat miqdarda vergi sanksiyası tətbiq edilib. Məcburi əməyin profilaktikası işində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də ölkədə olma və yaşama qaydalarını pozan 19 210 əcnəbinin müəyyən edilərək inzibati məsuliyyətə cəlb edilməsi, o cümlədən 3 740 nəfərin respublikanın hüdudlarından inzibati qaydada çıxarılması olub".

V.Eyvazov həmçinin əlavə edib ki, uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə keçirilən reydlər zamanı ailə mühiti, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq müəyyən edilib: "Aparılan yoxlamalarla həmin uşaqların insan alverinin və ya məcburi əməyin qurbanı olması təsdiqlənməyib. Lakin müvafiq problemlərin aradan qaldırılması, uşaqlara qayğı və yardımın göstərilməsi məqsədilə yerli icra hakimiyyətləri yanında komissiyalara, qəyyumluq və himayə orqanlarına 760 material göndərilib, övladlarının təlim-tərbiyəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 207 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb. Həmçinin küçə həyatına məruz qalmış 75 yeniyetmə və onların valideynlərinə Bakı, Gəncə və Quba şəhərlərində fəaliyyət göstərən uşaq mərkəzlərində ixtisaslı hüquqi və psixoloji yardımlar göstərilib. 2018-ci ildə övladlığa götürülmüş, qəyyumluğa və himayəyə verilmiş 143 uşağın yaşadığı ünvanlarda yerli icra hakimiyyəti orqanları tərəfindən monitorinqlər keçirilib, zəruri sosial yardımlar göstərilib"

Vilayət Eyvazov deyib ki, 2005-ci ildən insan orqanlarının qanunsuz transplantasiyası ilə bağlı 3 fakt qeydə alınıb. O qeyd edib ki, bəzi hallarda böyrək və digər orqanların satışı ilə bağlı məlumatlar yayılsa da, bu faktlar yoxlanır, amma təsdiqini tapmır.

Milli Koordinatorun sözlərinə görə, hazırda Azərbaycanda belə hal baş vermir.

V.Eyvazov əlavə edib ki, uşaq əməyinin istismarının qarşısının alınması ilə bağlı 14 dövlət qurumu ilə əməkdaşlıq mövcuddur və bu istiqamətdə ciddi tədbirlər görülür.

Nazirin birinci müavini hostellərin əxlaqsızlıq yuvası kimi istifadə olunması ilə bağlı yayılan məlumatlara da münasibət bildirib: "Sahibkarlıq obyektlərinin yoxlanılması ilə bağlı qanunvericilikdə məhdudiyyət var. Biz sizinlə birgə inzibati yolla deyil, izahedici, maarifləndirici işlərlə bunu həll edə bilərik".

---

**Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi artıq 2 ildir əmək münasibətlərinin tənzimlənməsi sahəsində fəaliyyət göstərir.**



*”Gizli qeyri-rəsmi əmək bazarının əsas iştirakçıları məhz sözügedən sektordadır və bu problem qalmaqda davam edir”*

# Tikinti şirkətlərində müqaviləsiz işlədilən cəmi 1115 fəhlə? - Reallığın izi ilə...

## ***Sahib Məmmədov:*** *”Reallıqda tikinti sektorunda çalışan işçilərin yarıdan çoxu müqaviləsiz işlədilir”*

Qurumun yaydığı məlumata görə, bu dövr ərzində mərkəz tərəfindən tikinti obyektlərində əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı 128 monitorinq həyata keçirilib. Monitorinqlər zamanı 1115 nəfərin əmək və ya xidməti (mülki) müqavilə olmadan işə cəlb edildiyi aşkar edilib. Yoxlanmış işçilərin 268 hüquqi və fiziki şəxsi təmsil etdiyi müəyyən edilib. Əmək və ya xidməti müqavilə olmadan işçi cəlb edən işəgötürənlərin 79-u üzrə inzibati cərimə və ya maliyyə sanksiyası tətbiq edilib, 3 işəgötürən üzrə əməldə isə cinayət tərkibinin olması müəyyən edilib və müxtəlif cəza və cərimə tədbirləri həyata keçirilib. Qeydə alınmış pozuntu halları üzrə, ümumilikdə, 1.25 milyon manat məbləğində cərimə və sanksiya tətbiq edilib.

Qurumdan o da bildirilib ki, monitorinqlər keçirilməyə başlandığı dövrdə çoxmənzilli yaşayış binalarının inşası ilə məşğul olan işçilərin 40 faizi rəsmi qeydiyyat olmadan çalışırdısa, hazırda bu göstərici 10 faizə qədər azalıb.

O da məlumdur ki, Azərbaycanda çoxsaylı tikinti şirkəti fəaliyyət göstərir. Onların böyük hissəsi əsasən Bakıda tikinti fəaliyyəti ilə məşğuldur. Bununla belə, işçilərin əsasən tikinti şirkətlərində müqaviləsiz işlədilməsi heç kəsə sirr deyil. Bu sahədə sözügedən problemlər iki ildə zaman-zaman gündəmə gəlib. Əsasən də podratçı tikinti şirkətləri işçiləri müqaviləsiz işlədir. Ölkədə böyük tikinti işlərinin aparıldığını, burada on minlərlə işçinin çalışdığını nəzərə alsaq, son iki ildə yalnız 1115 nəfərin əmək müqaviləsi olmadan işə cəlb olunması nə dərəcədə real rəqəmdir? Əslində, tikinti sektorunda müqaviləsiz işləyənlərin sayı nə qədərdir?

**Məsələyə münasibət bildirən Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri Sahib Məmmədovun sözlərinə görə, reallıqda tikinti şirkətlərində müqaviləsiz işləyənlərin sayı dəfələrlə çoxdur:** "Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə pilot layihə olaraq tapşırılan yer yalnız Bakı şəhəridir. Ona görə də aparılan monitorinq bütün respublikanı əhatə etmir. O da var ki, tikinti şirkətlərinin çoxu paytaxtda fəaliyyət göstərir. Bütün hallarda, bu o demək deyil ki, müqaviləsiz çalışan işçilər çox deyil. Sadəcə, bunların müəyyən etdiyi işçilərin sayı 1115 nəfər olub. Tikintidə müqaviləsiz işlədilən işçilərin sayı deyilən qədər deyil. Bu günün özündə də sözügedən problem qalmaqdadır. Baxmayaraq ki, dəfələrlə bu problem aktuallaşıb. Yəni reallıqda tikinti sektorunda çalışan işçilərin yarıdan çoxu müqaviləsiz işlədilir. Bir neçə il bundan əvvəl biz müəyyən etmişdik ki, cəmi tikinti sahəsində əmək müqaviləsi olanların sayı ölkə üzrə 15 min nəfəri keçmir. Halbuki, bütün ölkə üzrə güclü tikinti gedirdi. Özü də yalnız bina tikintisi yox, ümumiyyətlə, bütün tikinti sektorunda iş gedirdi. İndi həmin rəqəmlər dəyişə bilər, amma yenə də gizli qeyri-rəsmi əmək bazarının əsas iştirakçıları məhz tikinti sektorundadır və bu problem qalmaqda davam edir. Bir məqamı da qeyd edim ki, Dövlət Əmək Müfəttişliyinin bununla bağlı yoxlama aparmaq səlahiyyəti yoxdur. Bu onlara qadağan edilib. DƏM yalnız monitorinq keçirir və fiksə edəndə də özləri yox, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vasitəsilə onların məsuliyyət məsələsini qaldıra bilir".

***Vidadi ORDAHALLI***

**Keçmiş səhiyyə naziri 14 illik həbsdən sonra danışıb. O, yeni müxalif siyasi partiya yaradacağını deyib və əvvəllər təmsil olunduğu hazırkı iqtidarın daxili və xarici siyasətini tənqid edib. Əli İnsanov müxbirin suallarına cavab olaraq deyib ki, yaradacağı siyasi qurum müxalifyönlü, qərbyönlü olacaq.**

# Azərbaycanyönümlü yox, qərbyönümlü partiya - xarici siyasi oriyentasiya Əli İnsanov üçün uğur şərti sayıla bilərmi...

*Əsasən xarici qüvvələrlə işləməyə meylli olduğunu tez-tez büruzə verən, xalqın nə düşündüyünə önəm verməyən...*



*"Bu amil əsas şərtdirsə, onda niyə 30 ildir uğur qazana bilmirlər?"*

Sitat: "Mən siyasətdən uzaqlaşmamışam və yeni bir siyasi qurum yaratmaq fikrindəyəm. Çünki bu saat, Azərbaycanın bugünkü mövcud durumu bunu çox ciddi tələb edir". Əli İnsanov deyib ki, yaxın zamanlarda istədiyi siyasi qurumu yaratmağı və mübarizəyə başlamağı düşünür: "Ən böyük arzularımızdan biri Azərbaycan xalqına firavan həyat bəxş etməkdir. Azərbaycan sərvətləri ilə hər bir vətəndaşı varlı bir insan çevirə bilər. Marqaret Tetçer deyirdi ki, "varlı ingilis vətəndaşı varlı İngiltərə deməkdir". Mən güman edirəm ki, biz buna nail ola bilərik. Bizim yaradacağımız siyasi qurum müxalifyönlü, qərbyönlü olacaq. Güman edirəm ki, yaxın aylarda biz hazırlıq prosesini başa çatdırıb, yaradacağımız qurumu elan edəcəyik".

Çox maraqlıdır ki, Ə.İnsanov müsahibəsində bir neçə dəfə yeni yaradacağı qurumun qərbyönümlü olacağını xüsusi pafosla vurğulayır.

Hələ nazir olduğu dövrlərdən cəmiyyətdə əsasən neqativ imici olan Əli İnsanovun 2005-ci ildə həbsindən sonra barəsində korrupsioner imici daha da dərinləşdi. Yaşı 70-i ötmüş Əli İnsanovun bu gün yenidən siyasətə vəd etdiyi siyasi məqsədlər üçün yox, qisasçılıq niyyəti ilə gəldiyinə də indi Azərbaycanda əksəriyyət şübhə etmir. Belə taktika isə cəmiyyətə daha çox fəlakət vəd edir. Beləliklə korrupsioner, ardınca qisasçı imici qazanmış şəxsin, üstəlik, qərbyönümlü, ya şərqyönümlü siyasət barədə fikir yürütməsi də onun öz əleyhinə işləyən fakta çevrilir. Hər halda, Azərbaycan cəmiyyəti üçün çox qıcıqlandırıcı bir şeydir ki, siyasətə gələn adam "mən Azərbaycanyönümlü" olacağam yox, "Amerikayönümlü və sair yönümlü olacağam" deyir.

Azərbaycan siyasi arenasının mövcud şərtləri partiya yaradıb üzünü Şərqə, Cənuba, Qərbə və ya Şimala tutmaq şərtlərini necə qəbul edir? Hansısa xarici istiqaməti seçib, o yolun müqəddəsliyinə inanan Azərbaycanda müxalif qurumun uğur qazanması mümkündürmü?

Əsasən xarici qüvvələrlə işləməyə meylli olduğunu tez-tez büruzə verən, xalqın nə düşündüyünə əhəmiyyət verməyən qoca bir siyasət iddiaçısına cəmiyyətimiz necə baxır?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hər hansı siyasi qüvvənin üzünü hansı xarici səmtə tutması onun uğur qazanacağını şərtləndiə bilməz: "İstər müxalifətlər, istərsə də hakimiyyətlər xalqyönümlü olanda böyük uğur qazanırlar. Xüsusilə də yeni və qurulmaqda olan təsisatlara bu amil daha çox aiddir. Hesab edirəm ki, bu addımı atan şəxslərin bəlli məqsədləri var. Analoji hadisəni biz ölkəmizdə də hiss edirik. Yeni partiya yardacağını bəyan edən şəxs ideologiyasından əvvəl haralarla işləyəcəyini bəyan edir. Daha doğrusu, bu addım həmin ölkələr və fondlardan maliyyə və siyasi dəstək almağa hesablanıb. Bir fakta diqqət edək. Azərbaycanın əsas müxalif partiyaları sağ və sağ mərkəzçidir. Onların yönümünü araşdırsanız, hamısı bəyan edir ki, Avroatlantik məkana inteqrasiyanın tərəfdarıdırlar. Özü də bu kursu onlar müstəqillikdən sonra götürüblər. Bu amil əsas şərtdirsə, onda niyə 30 ildir uğur qazana bilmirlər? Biz bu amili daha çox postsovet məkanında olan respublikalarda görürük. Ən maraqlısı isə budur ki, bu gedişləri həmin ölkələrdə də sabiq məmurlar edirlər. Yəni öz komandası ilə yollarını ayıran məmurlardan bu gedişi daha çox görürük. Zamanında biz bunları Qırğızıstan, Gürcüstan və başqa ölkələrdə görmüşük. Bəzən isə müşahidələr göstərir ki, bu faktordan yayındırıcı amil kimi istifadə edirlər. Yəni əsl simpatiyası və əlaqələrini gizlətmək üçün bu siyasi gedişə əl atırlar. Mən bunu çox da uğurlu ideya saymıram. Çünki müasir dönəmdə belə amillərlə manipulyasiya edib uğur əldə etmək mümkün deyil. Azərbaycan cəmiyyətində isə vəziyyət tam fərqlidir. Çünki Azərbaycan siyasi elitasının özünün də Qərblə daha sıx əlaqələri var. Yəni heç kim deyə bilməz ki, Azərbaycan hakimiyyəti anti-Qərb mövqeyindədir və bu arqumentlə onu üstələmək olar, kimdənsə bu istiqamətdə dəstəyin qazanılması mümkündür. Azərbaycan hakimiyyəti bu yaxınlarda Qərblə çox ciddi bir sazişin imzalanması ərəfəsindədirsə, deməli, kiminsə bu cür amillərlə manevr etməsi mümkünsüzdür. Biz hətta elə ölkələrə rast gəlirik ki, onların hakimiyyətləri sırf qərbpərəst mövqe tutsalar da, sonradan ölkələrində yaşanan ciddi problemlərlə bağlı məhz həmin dairələrdən lazımi dəstəyi ala bilməyiblər. Bura Ukraynanı, Suriyanı, İraqı və s. aid edə bilərik. Bundan əlavə, daxildə xalqla Azərbaycan hakimiyyətinin sıx birliyi mövcuddur. Bu olduqca önəmlidir və onu deməyə əsas verir ki, hansısa yönümlü qüvvə asanlıqla bu birliyi sarsıtmaq gücünə sahib deyil".

*"Azərbaycan siyasi elitasının özünün də Qərblə daha sıx əlaqələri var"*

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv qəbul edilib. Bu, eyni zamanda, ölkəmizin müəyyən öhdəlikləri də üzərinə götürməsi ilə nəticələnib. Bunlardan biri də Azərbaycan vətəndaşlarının İnsan Haqlarına dair Avropa Məhkəməsinə müraciət etmək hüququnun tanınmasıdır.**

# Avropa Məhkəməsinin siyasi işlər barədə qərarlarını gəlir mənbəyinə çevirmiş ayrıca zümrə yaranmağa başlayır...

***Mehman Muradlı:** "Qoy bilsinlər, bəziləri dolanışığın yolunu bununla qurub"*



*"Bu adamın başqa işi-gücü yoxdur?"*

Qaydalara görə, pilləvi məhkəmə instansiyalarına müraciət etmək imkanı tükəndikdə, vətəndaş Ali Məhkəməyə olunan kasasiya şikayətilə bağlı verilən qərardan sonra 6 ay müddətində Avropa Məhkəməsinə şikayət etmək hüququna malikdir.

Bu baxımdan da həmin Avropa instansiyasına müraciət etmək kimi hüququ Azərbaycan hakimiyyətinin özü vətəndaşları üçün tanıyıb. Ancaq ora edilən müraciətlər və bu yöndə aparılan müzakirələrdən görünür ki, bundan sui-istifadə halları çoxalıb. Məlumdur ki. həmin məhkəməyə olunan şikayətdə cavabdeh kimi Azərbaycan göstərilir. Yəni vətəndaş öz münasibətlərini beynəlxalq hüquq müstəvisində ölkəsilə aydınlaşdırır. Şikayətçi məhkəməni udduqda Azərbaycan hökumətinin üzərinə onlara kompensasiya ödəmək kimi məsuliyyət qoyulur. Avropadakı rəsmi pul vahidi avro olduğu üçün, kompensasiyalar da avro ilə ödənilir. Məbləğlər az olmur: 5, 10, 15 min avro və s. Məhz bu məbləğlərin udulması bəzi insanları əməllicə şirnikləndirib. Radikal müxalif mövqeyində duran bəzi insanların sosial şəbəkələrdə apardıqları polemikalarda bu amil açıq etiraf olunur. Hətta ciddi şəkildə deyirlər ki, bir şikayətimə baxıldı, kompensasiya ilə mənzil problemimi qismən həll etdim. Bəziləri deyirlər ki, kommunikasiyada daha iki işim var, onlara baxılsın, filan problemimi həll edəcəm. Müzakirələrdə hətta "işləyib nə alacağıq ki, 400-500 manatla yara sağalar? Elə burdan alıb dolanırıq da..." fikirləri də səslənir. Məhz buna görədir ki, həmin çevrədə olan insanlar son vaxtlar xırda bir məsələni belə məhkəmə müstəvisinə daşımaqda maraqlıdırlar. Ciddi-cəhdlə çalışırlar ki, hansısa bir işlə bağlı barələrində məhkəmə qərarı olsun, sonra onu instansiyalardan keçirərək, Avropa Məhkəməsinə kimi aparsınlar. Bu amildən sui-istifadə hallarının qarşısını necə almaq olar?

**Hüquqşünas Mehman Muradlı qəzetimizə açıqlamasında bildirdi ki, belə halları çoxdan müşahidə edir, sadəcə, son vaxtlar daha da gücləndiyini görür:** "Mən təəssüf edirəm ki, Avropa Məhkəməsi bu tip işləri həvəslə icraata götürür və birmənalı olaraq, Azərbaycana qarşı sərt cərimələrin kəsilməsinə qərar verilir. Bunu artıq biznesə çeviriblər. Tam məsuliyyətilə deyə bilərəm ki, bu xidməti göstərən vəkillər yaxşı pul qazanırlar. Avropa Məhkəməsinə şikayətin göndərilməsi bəlli mərkəzlərin əlində cəmləşib. Bu işlə daha çox müxalif mövqeli vəkillər məşğul olurlar. Hətta şikayəti edənlə açıq şərt kəsilir ki, işi udacayıq, filan qədəri mənimdir. Bir neçə belə açıq mübahisələr sosial şəbəkələrdə də aparılıb. Hesab edirəm ki, bunun qarşısının alınması ilə bağlı Azərbaycan hakimiyyəti Avropa Şurası ilə məsləhətləşmələr aparılmalıdır. Onların nəzərinə bütün faktlar çatdırılmalıdır. Qoy bilsinlər, bəziləri dolanışığın yolunu bununla qurub. Necə ola bilər ki, bəzi insanın 4-5 işinə orda baxılır? Bu adamın başqa işi-gücü yoxdur? Bizim bu mövqeyimiz həqiqətən ora müraciət etmək hüququ olan şəxslərə şamil edilmir. Bəli, elə işlər olur ki, insanlar haqsızlıqla üzləşir və məcbur qalıb ora üz tuturlar. Bu tamamilə başqa məsələdir".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan müstəqillik qazandıqdan sonra dünya dövlətləri ilə yaxınlaşmaq, beynəlxalq təşkilatlarla əlaqələr qurmaq üçün inamlı addımlar atır. Fərqli sivilizasiyaların, mədəniyyətlərin, dinlərin arasında anlaşmanın, əməkdaşlığın optimal yollarının tapılması hazırda müasir dünyanın qarşısında duran ən mühüm problemlərdən biridir.**

# Ümumdünya mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfələri...




*"Dünyanı barışa, anlaşmaya, dialoqa çağırmaq üçün ən uyğun yerlərdən birinin..."*

Bu mövzuda son illər müxtəlif səviyyəli müzakirələrin aparılması, beynəlxalq toplantıların keçirilməsi, qurumların təsis olunması bir daha problemin nə qədər aktual olduğunu göstərir.

Bu gün Azərbaycan dünyada yaranmış qlobal problemlərin həllinə kömək göstərən təşəbbüslərlə çıxış edir. Onlardan ən əhəmiyyətlisi dünya dövlətlərini mədəniyyətlərarası dialoqa, multikultural dəyərlərdən faydalanmağa dəvət etməsidir. Dünyanın bir parçası olan Azərbaycan da bu prosesə öz töhfəsini verir. 2008-ci ildən etibarən ölkəmiz bu istiqamətdə beynəlxalq tədbirlərə evsahibliyi etməyə başlayıb. Həmin il Bakıda Avropa Şurası Parlament Assambleyasına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısı keçirilib. 2009-cu ildə Azərbaycan paytaxtında növbəti mötəbər tədbir - İslam Konfransı Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısı baş tutdu. 2010-cu ildə isə böyük əhəmiyyətə malik olan Dünya Dini Liderlərinin Zirvə görüşü reallaşdı. 2011-ci il aprelində 1-ci Dünya Mədəniyyətlərarası Dialoq Forumu, həmin ilin payızında və 2012-ci ilin oktyabrında Bakıda keçirilən 1-ci və 2-ci Beynəlxalq Humanitar Forumu, 2013-cü ildə Bakıda keçirilən 2-ci Dünya Mədəniyyətlərarası Dialoq Forumunu buna misal göstərmək olar. Ondan sonrakı illərdə də belə tədbirlər keçirildi. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması artıq faktdır.

## *Əkbər Qoşalı: "Ölkəmiz dünya mədəniyyətlərarası dialoq prosesinə çox şey verib"*

Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zoraki münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb. Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və İSESCO-nun tərəfdaşlığı ilə baş tutub. Tədbirə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri dəvət ediliblər. Bütün bunların fonunda, Azərbaycan ümumən dünya mədəniyyətlərarası dialoq prosesinə nə verib? **Məsələyə münasibət bildirən Bakı Atatürk Mərkəzinin şöbə müdiri, tanınmış şair-publisist Əkbər Qoşalının sözlərinə görə, Azərbaycan dünya mədəniyyətlərarası dialoq prosesinə çox şey verib:** "Azərbaycanın sayəsində mədəniyyətlərarası dialoqun vacibliyi gündəmə gəlib. Neçə illərdir Azərbaycanın moderatorluğu ilə bununla bağlı silsilə tədbirlər keçirilir, dünyanın bir sıra tanınmış şəxsləri, dövlət adamları, sənət adamları foruma gəlir. Dünya görür ki, Azərbaycan tolerant ölkə olaraq bu işə töhfə verir. Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Forum məhz Azərbaycan adı, ünvanı ilə tanınır və artıq beşinci dəfədir keçirilir. Bunlar özlüyündə ciddi önəm daşımaqdadır. Bu arasıkəsilməz tədbir hər dəfə respublikamızın daha yaxından tanıdılması, həqiqətlərimizin gərəyincə göstərilməsi baxımından əvəzsizdir. Hər dəfə bizə yeni dostlar qazandıran bu forum sıradan insanların deyil, nüfuzlu dövlət, elm, din, mədəniyyət xadimlərinin iştirakı ilə keçirilməsi ilə bir başqa əlamətdarlıq daşımaqdadır.

Dünyanı barışa, anlaşmaya, dialoqa çağırmaq üçün ən uyğun yerlərdən birinin, bəlkə də birincisinin məhz Azərbaycan olduğunu göstəririk. Ayrıca, səmavi dinlərin dinc yanaşı yaşamasının Azərbaycan modelinin necəliyini bir daha nümayiş etdiririk".

***Vidadi ORDAHALLI***

---

**Heç bir beynəlxalq tədbir, toplantı keçirmək təcrübəsi olmayan Ermənistan təsadüfən hansısa bir beynəlxalq tədbir keçirməyə cəhd edirsə, hər dəfə gülünc vəziyyətə düşür. Bu hal Avrasiya Birliyinin İrəvanda keçirilən iclasında da yaşanıb. Baki-xeber.com-un məlumatına görə sözügedən tədbirdə maraqlı insident baş verib.**

# Avrasiya Birliyinin İrəvan iclasında rüsvayçı naşılıq - beynəlxalq tədbirlərin təşkilində Azərbaycan və Ermənistan nümunələri...

Belə ki, sənədlərin uzunmüddətli razılaşdırılmasının ardından Ermənistan Baş naziri Nikol Paşinyan çoxmənalı şəkildə "İndi də keçirik..." ifadəsini işlədib və bunun cavabında Rusiya Baş naziri Dmitri Medvedyev "Hara keçirik" deyə soruşub. Mükalimə o qədər qəribə səslənib ki, iştirakçıların qəhqəhəli gülüşünə səbəb olub. Yalnız bundan sonra Paşinyan "sənədlərin imzalanmasına" deyərək fikrini tamamlayıb.



Hətta olaya Ermənistan mətbuatının özü də ironiya ilə yanaşıb. Erməni mətbuatı yazır ki, sözügedən insident İlf və Petrovun məşhur "12 stul" filmindəki bir səhnəni xatırladıb və gülüşmə də bu üzdən yaşanıb. Erməni mətbuatı ehtimal edir ki, Medvedyev elə bu səhnəni xatırlayıb və gülüşmə də bu üzdən düşüb. Pərt vəziyyətdə qalan Paşinyan isə sonradan situasiyanı düzəltməyə çalışaraq deyib ki, sənədlər üzərində işlədiklərindən hamı çox yorulmuşdu və kofe istəyirdi...

Ermənistanda keçirilən bu tədbirdən əvvəl Fransa Prezidenti Emmauel Makronun dəstəyilə İrəvanda keçirilən Frankofoniya sammitində bir çox biabırçılıq yaşanmışdı. Frankofoniya sammitinin, ümumiyyətlə, Ermənistanın mahiyyətinə uyğun gəlmədiyi məlumdur. Bu sammitin məqsədi birgəyaşayışı, tolerantlıq və multikulturalizmi təbliğ idi. Lakin bu göstəricilərin heç biri Ermənistanda yoxdur, o, monoetnik dövlət olduğu üçün, bu məsələ ilə onun heç bir əlaqəsi yoxdur. Qeyd edək ki, Frankofoniya sammitinin gedişində də bir sıra xoşagəlməz hadisələr baş vermişdi. Hətta tədbirə qatılan bəzi dövlətlərin nümayəndələri sammiti yarımçıq tərk etmişdilər. Qeyd edək ki, sözügedən sammitdə bəzi dövlətlərin ərazi bütövlüyünün tanıdılması məsələsi də müzakirə edilib və burada da ciddi fakir ayrılığı yaşanıb.

Frankofoniya adından da göründüyü kimi, əsasən fransız dili amili üzərində qurulub, bu halda isə həmin tədbirin ermənilərlə hər hansı bir əlaqəsinin olması sual altındadır.

Həmin tədbirdə baş verən oyunları şərh edən ekspertlər bildirirdilər ki, ermənilər bu tədbiri keçirməklə özlərini regionda sülhpərvər, tolerant bir xalq kimi göstərmək, Ermənistanı isə multikultural bir dövlət olaraq tanıtmaq məqsədi güdüb, lakin tədbirin uğursuzluğu onların bu niyyətini gözlərində qoyub.

## *Məhərrəm Zülfüqarlı: "Beynəlxalq tədbirlərə uğurla evsahibliyi etmək təcrübəsinə malik Azərbaycandan fərqli olaraq, Ermənistanın beynəlxalq tədbirlər keçirmək səriştəsi sıfırdır"*

Ermənistandan fərqli olaraq, Azərbaycan isə sıxsıx müxtəlif profilli beynəlxalq tədbirlər keçirir. Son illər ölkəmizin evsahibliyi ilə ardıcıl olaraq fərqli sahələri əhatə edən tədbirlərin keçirilməsi beynəlxalq aləmdə olduqca müsbət qarşılanır.

İndiyə qədər ölkəmizdə müxtəlif beynəlxalq turnirlər keçirilib. Bunlardan bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya çempionatı, "Baku World Challenge" avtomobil yarışı və olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbirlərinin, o cümlədən də Dünya və Avropa çempionatlarının, İslam Oyunlarının, I Avropa Oyunlarının adlarını çəkə bilərik. Ölkəmiz böyük uğurla "Formula-1" yarışlarına evsahibliyi edir. Ölkəmizin evsahibliyi ilə "Avroviziya" musiqi yarışması da uğurla keçirildi. Ölkəmizdə ənənəvi olaraq keçirilən Bakı Humanitar Forumu, Qlobal Forum, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və s. tədbirlərdə kiçik bir insident yaşanmayıb. Bu da onu göstərir ki, Ermənistanla müqayisədə Azərbaycan belə tədbirlərin keçirilməsində çox böyük təcrübəyə malikdir.

*"Paşinyanın Avrasiya Birliyinin İrəvanda keçirilən tədbirində şou göstərməsi onun belə tədbirdə özünü aparmağı bacarmaması ilə bağlıdır"*

**Tanınmış tarixçi-alim, professor, siyasi icmalçı Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, beynəlxalq tədbirlərin təşkilində Ermənistanla Azərbaycan müqayisə edilə bilməz.** M.Zülfüqarlı hesab edir ki, Azərbaycanın bütün istiqamətlərdə beynəlxalq tədbirlər keçirmək təcrübəsi var, Ermənistan isə bu sahədə olduqca təcrübəsiz və naşıdır. "Qafqazda lider dövlət olan Azərbaycanın evsahibliyi ilə keçirilən bütün tədbirlər uğurla başa çatıb. Çünki beynəlxalq tədbirləri keçirməkdə ölkəmiz böyük təcrübəyə, iqtisadi, mədəni, sosial, siyasi resurslara malikdir. İstər Bakı Humanitar Forumu, istər mayın 2-3-də keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, istərsə də digər tədbirlər uğurla başa çatıb. Beynəlxalq tədbirlərə uğurla evsahibliyi etmək təcrübəsinə malik Azərbaycandan fərqli olaraq, Ermənistanın beynəlxalq tədbirlər keçirmək səriştəsi sıfırdır. Onlar beynəlxalq tədbirlər keçirməkdə təcrübəsiz olsalar da, saxtakarlıqda, uydurma işlərdə böyük təcrübəyə sahibdirlər. Ermənistanda, ümumiyyətlə, beynəlxalq tədbirlər çox nadir hallarda keçirilir və hər dəfə bu tədbirlərdə insidentlər baş verir. Ona görə ki, onların məqsədi tədbir keçirmək yox, bu tədbirləri təşkil etməklə şou düzəltməkdir. Ermənilər hər dəfə tədbirlərində şou düzəldirlər. Avrasiya Birliyinin tədbirində baş verənlər də Nikol Paşinyanın və ermənilərin qeyri-sabit, rabitəsiz fəaliyyətlərinin göstəricisidir. Paşinyanın Avrasiya Birliyinin İrəvanda keçirilən tədbirində şou göstərməsi onun belə tədbirdə özünü aparmağı bacarmaması ilə bağlıdır. Ermənistan heç vaxt beynəlxalq səviyyədə tədbir keçirə bilməz, çünki buna onun heç bir potensialı yoxdur. Belə tədbirləri keçirməyə cəhd göstərdikdə isə biabır olurlar" - deyə M.Zülfüqarlı qeyd etdi.

***İradə SARIYEVA***

# Gürcüstan rəhbərliyindən eyni sərhəd probleminə görə Azərbaycana və Ermənistana fərqli siyasət...

**Son günlər Gürcüstan Prezidentinin Azərbaycanla sərhədin delimitasiya edilməsi ilə bağlı səsləndirdiyi fikirlər ən çox müzakirə olunan məsələlərdən biridir. Qeyd edək ki, iki ölkənin Dövlət Komissiyasının sonuncu iclası 2011-ci ildə Bakıda keçirilib. Bundan sonra danışıqlar dayanıb.**



*”Ölkə hakimiyyətində çoxsaylı erməni əsilli şəxs təmsil olunur”*

## *Elşən Manafov: ”Cavaxetiyada kompakt halda yaşayan ermənilərdən ehtiyat edirlər”*

Azərbaycanın Gürcüstanla sərhəd xətti 446 kilometrdir. Bunun 314 kilometri razılaşdırılıb. David Qareci kompleksinə aid abidələr isə 150 kvadrat kilometr sahədə bir əraziyə səpələnib. Bu abidənin xeyli hissəsi Gürcüstan ərazisindədir. Gürcülərin mübahisəli saydığı və Azərbaycan ərazisində olan hissəsi kompleksin cəmi 2 faizini təşkil edir. Bəzilərinin bu məsələ ətrafında süni gərginlik yaratma cəhdləri açıq-aşkar ortadadır.

Maraqlı olan bir məqam da ondan ibarətdir ki, Gürcüstanın Ermənistanla da sərhədlərin delimitasiyası ilə bağlı problemləri var. Ancaq, nədənsə, bu məsələnin həllini Gürcüstan rəsmiləri qaldırmır. Ermənistanla rəsmi sərhədin olmaması azərbaycanlıların yaşadığı dədə-baba torpaqlarına erməni iddialarını genişləndirib və müxtəlif vaxtlarda bir sıra sərhədyanı kəndlər, otlaq yerləri ermənilər tərəfindən zəbt edilib. Tiflis bu məsələdə susmağa üstünlük verib.

Ermənistanla Gürcüstan arasında sərhəd məsələsinə görə iki ölkə cəmiyyətlərində 2017-ci ildə müəyyən gərginlik yaşanıb. Münasibətlərin pisləşməsinə Xuçapvəng kilsəsi təsir göstərib. Gürcüstanın Dmanisi rayonunda azərbaycanlıların yaşadığı Ağkörpü kəndinin yaxınlığında yerləşən Xuçapvəng kilsəsi XIII əsrdə tikilib. 1921-ci ildə regionu ələ keçirən bolşeviklər əsasən azərbaycanlıların və qismən də rusların yaşamasına baxmayaraq, tarixi Lori mahalını, eləcə də Xuçapvəng kilsəsini Ermənistana tabe ediblər. İki ölkə arasında gedən sərhəd demarkasiyası proseduru zamanı kilsənin Ermənistanda qalması ehtimalı var və bu da Gürcüstanda etirazla qarşılanır.

Maraqlıdır, Gürcüstan rəsmiləri Azərbaycandan tələb etdiyi halda, Ermənistanla sərhəddə demarkasiya ilə bağlı məsələlərin həllini niyə qaldırmırlar?

**Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, Gürcüstan rəsmiləri, nədənsə, Ermənistanla bu məsələni müzakirə etməkdən çəkinirlər:** "Ancaq Azərbaycanla sərhəd məsələlərinin bu həddə qaldırılmasında maraqlı olan qüvvələr var. Hansı ki, bir kilsəyə görə məsələnin bu dərəcədə qabardılmasına ehtiyac yox idi. Hesab edirəm ki, bunun arxasında müəyyən xarici qüvvələr dayanır. Ona görə ki, zamanında Azərbaycanla Gürcüstan arasında demarkasiya ilə bağlı məsələlərə aydınlıq gətirilmişdi. Üstəgəl, bu iki ölkənin yaxın əməkdaşlıq etməsi bəllidir. Azərbaycan kimi Gürcüstanda da həyati əhəmiyyət kəsb edən tranzit kəmərlər var. Gürcüstan bu kəmərlərə görə böyük vəsaitlər əldə edir. Gürcüstan enerji blokadasında olanda onun harayına Azərbaycan çatdı. Ancaq o da faktdır ki, Gürcüstanın Ermənistanla da demarkasiya problemləri var. Lakin Gürcüstan rəsmiləri bu ölkə ilə sərhəd məsələsini həll etməyə tələsmirlər. Niyə? Ona görə ki, Ermənistandan çəkinirlər. Cavaxetiyada kompakt halda yaşayan ermənilərdən ehtiyat edirlər. Bundan başqa, Gürcüstan hakimiyyətində çoxsaylı erməni əsilli şəxs təmsil olunur. Bu faktorun da rolu var. Baxın, Gürcüstanda yaşayan ermənilərin sayı azərbaycanlılardan qat-qat azdır. Ancaq parlamentdə daha çox erməni əsilli deputat var. Azərbaycanlılara isə bu imkan verilmir. Baxmayaraq ki, Azərbaycanın önəmi Gürcüstan üçün daha böyükdür. Yəni ədalətsiz yanaşma ortadadır".

***Vidadi ORDAHALLI***

# Ermənistan dünyada etiraf edilmiş daha bir terrorçunu milli qəhrəman kimi əbədiləşdirir...

**Bütün dünyanın terrorla mübarizə apardığı bir dövrdə Ermənistanın terrora dəstək verməsi, terrorçulara sahib çıxması bu ölkədə artıq mənfi bir ənənəyə çevrilib. Uzun illərdir dünyanı qorxu içində saxlayan, ayrı-ayrı dövlət rəsmilərinə, diplomatlara qarşı terror aktları törədən erməni terror təşkilatlarının daha da çiçəklənməsinə Ermənistanın açıq-aşkar dəstək verməsi faktdır.**



Ermənistan dövləti tərəfindən ASALA erməni terror təşkilatının nəinki həyatda olan üzvlərinə saygı göstərilir, hətta ölmüş təmsilçiləri də "dirildi"lir.

Məlum olduğu kimi, erməni terror təşkilatı ASALA dünyada törətdiyi bir sıra qanlı terror hadisələri ilə yadda qalıb. Xüsusilə də keçən əsrin 70-80-ci illərində türk diplomatlarının Amerikada və Avropa ölkələrində qətlə yetirilməsini bu terror təşkilatı həyata keçirib. ASALA üzvləri bir sıra türk diplomatlarına qarşı qanlı cinayətlər törədib, onların həyatına son qoyublar. Bütün dünya tərəfindən lənətlənən bu terror təşkilatlarının törətdiyi silsilə qətllər erməni xislətinin ən bariz nümunələrindən biridir.

Qeyd etdiyimiz kimi, artıq Ermənistan dövləti bu terror təşkilatına rəsmən sahib çıxdığını ortaya qoyub. O bu istiqamətdə addımlar atır. Belə ki, ASALA-nın fəal üzvlərindən olmuş Qurgen Yanikyan adlı terrorçunun qalıqları artıq Ermənistana gətirilib və caninin simvolik dəfni keçirilib. Bu həmin canidir ki, bir sıra türk diplomatlarını qətlə yetirib. Maraqlıdır ki, Ermənistan mətbuatı bu adamı "qəhrəman" kimi qələmə verir. Erməni mediası yazır ki, o, 1895-ci ildə Ərzurumda doğulub. Erməni mətbuatı böyük saxtakarlığa yol verərək Ərzurumu "Cənubi Ermənistan" kimi təqdim edir. Erməni mətbuatı qeyd edir ki, Q.Yanikyan qondarma "erməni soyqırımı"nın "canlı şahidi" olub.

Həmin cani 27 yanvar 1973-cü ildə ABŞ-ın Santa-Barbara şəhərində türk diplomatını və onun köməkçisini güllələyib. Çox qəribədir ki, Ermənistan mətbuatı caninin bu əməlini "kişilik" və "erməni xalqının haqqının qoruyucu"su kimi təqdim etməkdən çəkinməyib.

Xatırladaq ki, 1973-cü ilin 2 iyun tarixində Yanikyan ABŞ-da həbs edilib və ömürlük həbs cəzasına məhkum edilib. 1984-cü ildə isə səhhətində yaranan problemlərlə bağlı türmədən xəstəxanaya göndərilib və 17 gün sonra isə ölüb.

Bu gün Ermənistanın Q.Yanikyanın "erməni xalqının qəhrəman" kimi qələmə verməsi və onun nəşini simvolik qəbrdə dəfn etməsinin yolverilməz olduğunu bildirən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru **Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanın terrorçuları "qəhrəman" ?lan etməsi ilk hadisə deyil.** V.Abışovun sözlərinə görə, ermənilər iki əsrdən artıqdır, açıq-aşkar, öz terrorçuluq əməllərini həyata keçirirlər. Onun dediyinə görə, bütün dünya erməni terror təşkilatlarından ziyan çəksə də, indiyə qədər heç bir terrorçu törətdiyi cinayət əməllərinə görə beynəlxalq tribunala verilməyib. "Ermənistanın bir dövlət kimi terroru dəstəklədiyi, terrorçuların xatirəsini əbədiləşdirdiyi, onlara heykəllər, büstlər qoyduğu bütün dünyaya məlumdur. Bu kimi faktlarla bağlı həm Azərbaycan, həm də Türkiyə istər ölkə daxilində, istərsə də beynəlxalq qurumlar səviyyəsində məsələ qaldırıb. Ermənistanın bir deyil, bir neçə terror təşkilatı var və o təşkilatlar bütün dünyada, xüsusən də Avropa ölkələrində və ABŞ-da qanlı cinayətlər törədiblər. ASALA-nın və digər erməni terror

## *Vaqif Abışov: ”Ermənistan cani Qurgen Yanikyanın nəşini öz ərazisində dəfn etməklə rəsmən ASALA kimi terrorçu təşkilatın fəaliyyətinə yaxından havadarlıq etdiyini göstərir”*

təşkilatlarının isə əsas qurbanları türk diplomatları, dövlət adamları olub. Bu terror təşkilatları haqqında ABŞ-ın da, BMT-nin də, digər ölkə və beynəlxalq qurumların məlumatları var. Həmin qurumlar və dövlətlər də bəzən həmin terror təşkilatlarının əməllərini qınayırlar. Bu günə kimi həmin terror təşkilatlarının üzvləri həbs edilsə də, təəssüflər olsun ki, onların heç biri beynəlxalq tribunala verilməyib. Beynəlxalq qurumlar erməni terror təşkilatlarına qarşı ciddi addımlar atmasa, bu qarşısıalınmaz bir prosesə çevriləcək.

*”ASALA-nın və digər erməni terror təşkilatlarının əsas qurbanları türk diplomatları, dövlət adamları olub”*

O ki, qaldı bu gün türk diplomatlarına qarşı qanlı cinayətlər törədən, onları qətlə yetirən ASALA erməni terror təşkilatının üzvlərindən birinin qalıqlarının ABŞ-dan İrəvana gətirilərək burada dəfn edilməsi məsələsinə, bu faktla da bağlı beynəlxalq qurumlar sərt mövqe sərgiləməlidirlər. Cinayətkarın "qəhrəmanlaşdırılması" və ona "erməni xalqının xilaskarı" statusu (?) verilməsi, onun nəşinin Ermənistanda dəfn edilməsi yolverilməzdir. Ermənistan tarixi cinayətlərə, qanlı cinayətkara bəraət qazandırır, cani Q.Yanikyanın nəşini öz ərazisində dəfn etməklə rəsmən ASALA kimi terrorçu təşkilatın fəaliyyətinə yaxından havadarlıq etdiyini göstərir. Ermənistanda faşist Njde Qareginə, terrorçu, daşnak Andronikə heykəl qoyulub və onlar "qəhrəmanlaşdırılıb". İndi də ASALA-nın üzvü olan Q.Yanikyanın nəşini Ermənistana gətiriblər və onu dəfn ediblər".

V.Abışov onu da qeyd etdi ki, Türkiyə və Azərbaycan da erməni terror təşkilatı üzvlərinə Ermənistanın havadarlıq etməsi məsələsinə bir daha sərt reaksiya verməlidir. O, həmçinin, təəssüflə vurğuladı ki, Türkiyədə ermənilər tərəfindən 1915-ci il qondarma "erməni soyqırımı" ilə bağlı "şəhid ifadə"ləri əsasında kitab nəşr ediblər və həmin kitabı müxtəlif dillərə tərcümə edərək yaymaq niyyətində olduqlarını açıqlayıblar. V.Abışovun bildirdiyinə görə, sözsüz ki, tarixdə erməni soyqırımı olmadığı üçün, heç onun şahidləri də yoxdur. "Baş verməyən bir hadisənin şahidinin olması gülüncdür. Barəsində danışdığım kitab "şahid ifadələr"i əsasında yazılıb. Aşkar görsənir ki, həmin saxta şahidlərdən biri də Yanikyandır. Ermənilərin tarixi saxta olduğu kimi, qəhrəmanları da saxtadır, terrorçunu "qəhrəman" kimi qələmə verən dövlətin özü terror yuvasıdır" - deyə V.Abışov bildirdi.

***İradə SARIYEVA***

# Dünya Azərbaycan diasporunda maraqlı proseslər - Dövlət Komitəsi işin harasında...

**Azərbaycanın xaricdə güclü diasporunun olmasını hamıdan çox istəyənlərdənik. Bunu təsadüfən xatırlatmırıq. İş burasındadır ki, son vaxtlar diaspor prosesində cərəyan edən proseslərə fərqli və bəzi aspektlərə tənqidi yanaşmamız çeşidli mülahizələrin meydana çıxmasına şərait yaradıb. İş burasındadır ki, Frenk Elkaponinin (Füzuli Məmmədov) rəhbərliyi altında Rusiyada yaşayan azərbaycanlıların yeni diaspor təşkilatının (Rusiya Azərbaycanlıları İttifaqı) yaradılması ilə bağlı apardığımız araşdırmalar və təqdim etdiyimiz silsilə materiallardan yanlış nəticələr çıxaranlar da var.**

Sosial şəbəkələrdə bu məzmunda olan paylaşımlarımız və ən əsası da məqalə linkləri ətrafında gedən müzakirələrdə hətta bizə müəyyən iradlar da tutulur. Sanki bizim jurnalist fəaliyyətimizi hansısa ölkədə diaspor quruculuğunda gedən birləşmə və ya zorən kleyləşmə proseslərinə mane olmaq cəhdi kimi dəyərləndirənlər də tapılır. Təbii ki, kökündən yanlış olan yanaşmadır. Çünki, media olaraq, Azərbaycan diasporu ilə bağlı təbliğati məzmunlu silsilə yazıları da məhz biz yazmışıq. Daim diasporumuzun üzləşdiyi problemlərə diqqət ayırmışıq. Maraqlıdır ki, bu yöndə canfəşanlıq etmək istəyən və müəyyən mənada bizə ağıl verməyə cəhd edən adamların diaspor quruculuğu, onun təbliğində zərrə qədər də əməyi olmayıb. Belələrinə hətta şirəyə yığışanlar da demək olar. Harada yeni təşkilat, pul iyi varsa, həmin adamları məhz orada görməyə artıq alışmışıq. Bu izahatı ona görə verdik ki, bizim bu mövzuya yanaşmamızı bir daha başqa səmtə yozmağa cəhd etməsinlər. Müşahidələrimiz nəticəsində bu qərara gəlirik ki, sanki dünyanın müxtəlif ölkələrində diaspor qurumlarının yeni təşkilatlanması prosesinə cəhdlər nəzərə çarpır. Təqdir olunası prosesdir. Çünki söhbət hansısa yeni diaspor qurumu və ya dərnəyinin yaranmasından deyil, çox əhəmiyyətli çoğrafiyalarda diaspor qurumlarımızın konsolidasiyasına olunan cəhdlərdən gedir. Bizim üçün ən maraqlı olan budur ki, bu proseslər məlum istiqaməti kurasiya etməyə məsul olan Diaspor İşləri üzrə Dövlət Komitəsinin iradəsi kənarında baş verir.

Çox xahiş edirik, kimsə bizə "yanılırsınız" deməsin. Çünki hadisələri obyektiv analiz etməyə qadirik. Niyə bu sözü Ukrayna ilə bağlı söyləmirik? Orada da güclü və bir-birilə antoqonist mövqedə dayanan diaspor qurumlarımız vardı. Dövlət Komitəsinin rəhbərliyində baş verən dəyişiklikdən sonra müşahidə etdik ki, Fuad Muradovun bir neçə dəfə həmin ölkəyə səfər etməsi, diaspor liderləri ilə keçirdiyi görüşlər öz bəhrəsini vermiş oldu. Nəticədə bizim hamımızı sevindirən bir hadisə baş verdi. Bütün diaspor qurumlarımız umuküsünü bir tərəfə qoyaraq, Ukrayna Azərbaycanlılarının Radası adlı qurumda birləşdilər. Tədbirdə Diaspor Komitəsinin rəhbərliyi də iştirak etdi. Yəni bu işdə Azərbaycan dövlətinin dəstəyi və xeyir-duası açıq hiss edildi. Ancaq Rusiyada baş verən son proseslərdə, nədənsə, biz səfirlik əməkdaşlarımızın, hansısa dövlət rəsmisinin və ən başlıcası isə Diaspor Komitəsinin nümayəndələrinin iştirakını görmədik. Hər halda, bu sualla Füzuli Məmmədovun yeni təşkilatının rəhbərliyində təmsil olunan şəxslərə müraciət etmək kimi haqqa sahib olduğumuzu bilib, onlara sorğu etdik.

Rusiyada yaşayan tanınmış diaspor fəalı və yeni təşkilatın əsas funksionerlərindən olan Mirkazım Seyidov bizə açıqlamasında bildirdi ki, komitə bu işi dəstəkləyir, hətta dövlət qurumunda təmsil olunan bir nəfərin onlara xeyir-dua verməsi də qeyd edildi. Sonradan bizimlə əlaqə saxlayan Mirkazım müəllimin danışığından belə başa düşdük ki, komitədən ona zəng vurub bu məsələdə onların adını hallandırdığına görə irad bildiriblər. Maraqlı sual yaranır: görəsən niyə? Əslində, bu suala cavabı elə Diasporla İş üzrə Dövlət Komitəsi özü cavablandırıb. Rusiyada yaşayan azərbaycanlıların yeni diaspor təşkilatının yaradılması ilə bağlı suala qurum rəsmisinin verdiyi cavabda mövzuya bir qədər ehtiyatlı yanaşıldığı hiss edilir.




Dövlət Komitəsinin Mətbuat xidmətinin rəhbəri Vəsilə Vahidqızı deyib ki, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar və onları birləşdirən təşkilatlar son dövrlərdə fəaliyyətlərini mərkəzləşdirməyə və kollegial qərarlar qəbul etməyə üstünlük verirlər. O vurğulayıb ki, ötən ildən başlayaraq bir sıra ölkələrdə azərbaycanlıların koordinasiya şuralarının yaranması və Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbər şəxslərinin də onların yığıncaqlarına dəvət olunması təqdirəlayiqdir: "Hazırda yaşadığı ölkədən asılı olmayaraq, soydaşlarımızın təşkilatlanması prosesi davam edir və genişlənir. Bu günlərdə Rusiyada yaşayan azərbaycanlıların və bir sıra diaspor təşkilatlarının yeni bir qurumda birləşməsi də soydaşlarımızın bu yöndə olan təşəbbüslərindən biri kimi qiymətləndirilir".

Hər halda, bu münasibətdən də görünür ki, yeni qurumun yaradılması ilə əlaqədar dövlət qurumu soydaşlarımızın öz təşəbbüsü kimi dəyərləndirir. Analogiya aparsaq görərik ki, elə Rusiyanın özü və başqa ölkələrdə yaradılan böyük diaspor təşkilatlarının təqdimatında biz dövlət qurumlarının bir qədər isti münasibətinin şahidi olmuşuq. Belə olan təqdirdə, maraqlı suallar meydana çıxır. Əgər komitə bu işi soydaşlarımızın öz öhdəsinə buraxıb və qurum rəsmilərinin həmin tədbirlərə dəvətini normal qəbul edirsə, onda niyə bəzi ölkələrdəki tədbirlərdə iştirakı məqsədəuyğun saymır?

Qeyd edək ki, Rusiyanın ardınca, diasporumuzun konsolidasiyası istiqamətində başqa bir çoğrafiyada da komitənin iradəsindən xaric proseslər start götürüb. Mərkəzi Almaniyada yerləşən Dünya Azərbaycanlıları Assambleyası və mərkəzi İsveçdə yerləşən Dünya Azərbaycanlıları Milli Birliyi Təşkilatı tərəfindən "Dünya Azərbaycanlıları Milli Birliyə Doğru" forumunun keçirilməsinə qərar verilib.

Bildirilir ki, forumun keçirilməsi ilə bağlı qərar hər iki təşkilatın idarə heyətində müzakirə edilib və bu fikir dəstəklənib. Forumun keçiriləcəyi yerlər arasında müzakirə olunan ölkələr Avstriya, Almaniya, İsveçrə və Belçikadır. Bununla yanaşı, təkliflər arasında digər ölkələr də var.

Bu günlərdə yayımlanacaq geniş açıqlamada yer və tarixlə bağlı məlumat veriləcək. Dünyaya səpələnmiş soydaşlarımızın vahid qurum ətrafında təşkilatlandırılması, Azərbaycanın işğala və təcavüzə məruz qalması ilə bağlı beynəlxalq qurumları məlumatlandırmaq, bir çox ölkənin təşkilat təmsilçiləri ilə münasibət quraraq dünyada sülhün təbliği istiqamətində iş aparmaq forumda müzakirə olunacaq əsas mövzular sırasındadır. Foruma 30-a yaxın ölkədən 200-ə yaxın nümayəndə heyətinin qatılacağı gözlənir. Hər halda, dünyadakı Azərbaycan diasporunda maraqlı proseslərin getdiyinə şahidlik edirik. Amma Diaspor Komitəsi bu işlərdə gözə dəymirsə, deməli, ortada hansısa müəmma var...

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan Avrasiya Birliyinin İrəvan iclasında özünü də, Medvedyevi də pis vəziyyətdə qoydu



**Avrasiya Birliyinin İrəvanda keçirilən iclasında maraqlı insident baş verib.**

Baki-xeber.com-un xəbərinə görə, sənədlərin uzunmüddətli razılaşdırılmasının ardından Ermənistan Baş naziri Nikol Paşinyan çoxmənalı şəkildə "İndi də keçirik..." ifadəsini işlədib və bunun cavabında Rusiya Baş naziri Dmitri Medvedyev "Hara keçirik" deyə soruşub. Mükalimə o qədər qəribə səslənib ki, iştirakçıların qəhqəhəli gülüşünə səbəb olub. Yalnız bundan sonra Paşinyan "sənədlərin imzalanmasına" deyərək fikrini tamamlayıb.

Erməni mətbuatı yazır ki, sözügedən insident İlf və Petrovun məşhur "12 stul" filmindəki bir səhnəni xatırladıb və gülüşmə də bu üzdən yaşanıb. Xatırladaq ki, filmdəki həmin fraqmentdə Dumanın sabiq deputatı Kisa Vorobyaninov tələbə qızla nahar etdikdən sonra çoxmənalı şəkildə ona "indi də keçək nömrəyə" deyir...

Erməni mətbuatı ehtimal edir ki, Medvedyev elə bu səhnəni xatırlayıb və gülüşmə də bu üzdən düşüb. Pərt vəziyyətdə qalan Paşinyan isə sonradan situasiyanı düzəltməyə çalışaraq deyib ki, sənədlər üzərində işlədiklərindən hamı çox yorulmuşdu və kofe istəyirdi...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# "Bakı Prosesi" Qarabağ münaqişəsinin həllində də Azərbaycana yeni üstünlüklər qazandırır...




**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin davamlı olaraq dünya ictimaiyyətinə çatdırılması və bu məsələdə Azərbaycana verilən dəstəyin gücləndirilməsi rəsmi Bakının xarici siyasətində daim prioritet istiqamətlərdən birini təşkil edib. Qeyd olunan xüsusda Azərbaycan diplomatiyasının aktivinə xeyli qələbə yazılması da heç kimə sirr deyil.**

Bununla belə, Azərbaycan əldə edilən nəticələrlə kifayətlənməyərək məsələni daim dünya gündəmində saxlamağa çalışır. Bu mənada, Bakıda "Ayrıseçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Qarabağ məsələsinə də xüsusi diqqət yetirilməsi tamamilə təbii xarakter daşıyır.

Qeyd edək ki, bu mövzuya forumda çıxışı zamanı Prezident İlham Əliyev geniş toxundu. Dövlət başçısının burada diqqətə çatdırdığı başlıca məqamlardan biri həm də beynəlxalq hüququn qeyri-işləkliyi və bunun yaratdığı fəsadlarla ilgili oldu: "Uzun illər üzləşdiyimiz əsas problemlərdən biri Ermənistanın ölkəmizin ərazisini işğal etməsidir. İyirmi beş ildən artıqdır ki, Ermənistan bizim tarixi torpağımız olan Dağlıq Qarabağı və Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Bu, beynəlxalq hüququn kobud pozulmasıdır. Bizim xalqa qarşı etnik təmizlənmə aparılıb, Ermənistanın təcavüzü və işğalı nəticəsində bir milyondan artıq insan evlərindən didərgin salınıb. ATƏT işğal edilmiş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərib və həmin hesabatlar tarixi irsimizin və dini abidələrimizin dağıdıldığını aydın şəkildə göstərir ". Bununla yanaşı, Prezident onu da diqqətə çatdırıb ki, Azərbaycan məsələnin məhz beynəlxalq hüquq əsasında dinc müstəvidə həllini istəyir: "BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalıb. Bu onun göstəricisidir ki, bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri uzun illər ərzində icra edilmir. Onların yerinə yetirilmə mexanizmi ya mövcud deyil, ya da tətbiq edilmir. Bunun nəticəsində isə Azərbaycanın torpaqları işğal altında qalmaqdadır. İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamə və qərarlar qəbul ediblər. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və münaqişə beynəlxalq hüququn normaları, BMT Nizamnaməsi, Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktına əsasən həll edilməlidir".

Bununla Azərbaycan ən yüksək səviyyədə mühüm bir beynəlxalq plaftormada Qarabağ münaqişəsi ilə bağlı real vəziyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırır. Məsələ ilə bağlı Mədəniyyətlərarası Dialoq Forumunda İSESKO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin mövqeyi də olduqca maraqlıdır. O bu xüsusda bildirir: "Bizim hamımıza məlum olan reallıq ondan ibarətdir ki, Azərbaycanın 20 faiz ərazisi Ermənistanın işğalı altındadır. Bu da beynəlxalq hüququn pozulmasıdır. BMT-nin Təhlükəsizlik Şurasının bununla bağlı qətnamələri var. Azərbaycan sülh, dialoq və qarşılıqlı hörmətə, yanaşmaya əsaslanan ölkədir. Dünya Azərbaycana yardım etmir, dünya Azərbaycana ədalətsiz yanaşır. Ancaq bu torpaqlar yenidən Azərbaycana qovuşmalıdır. Bu, sülhə aparan yoldur, bu, dialoqun uğurlu olmasına aparan yoldur". Belə bir mövqenin Prezident İlham Əliyev və forumda iştirak edən digər yüksək vəzifəli şəxslər tərəfindən diqqətə çatdırılması, heç şübhəsiz, Azərbaycana əlavə diplomatik üstünlüklər qazandırır. "Bakı Prosesi"nin ən mühüm tərəflərindən biri də elə budur.

Ümumiyyətlə, ölkəmizdə keçirilən belə mühüm əhəmiyyət kəsb edən tədbirlərin məqsədi xalqlar, dövlətlər və sivilizasiyalar arasında dialoq imkanlarını genişləndirməklə yanaşı, həm də sülh, əminamanlıq ətrafında fikir mübadiləsi aparmaqdır. Cənubi Qafqazda belə sülhün təmin edilməsinin ümdə şərti isə Qarabağ münaqişəsinin həllidir ki, Azərbaycan növbəti dəfə bunu dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bu mənada, Azərbaycanın sivilizasiyalararası dialoqun, multikulturalizmin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu mərkəzə çevrilməsi ölkəmizə Qarabağ münaqişəsinin beynəlxalq diqqət mərkəzində qalmasını təmin etmək baxımından da mühüm dividendlər qazandırır. Burada onu da nəzərə almaq lazımdır ki, Bakıda keçirilən dünya miqyaslı belə tədbirlər Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu xeyli artırır. Məhz bu şəraitdə Azərbaycanın mövqeyini qəbul edənlərin də sayı çoxalır. Belə vəziyyət isə Qarabağ məsələsi ətrafında Azərbaycana daha çox beynəlxalq dəstəyin verilməsinə də gətirib çıxarır.

Ümumiyyətlə, "Bakı Prosesi" adını alan Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarında Qarabağ məsələsinin diqqət mərkəzində olması Azərbaycan üçün əsas məqamlardan biri sayılır. Xatırladaq ki, 2011-ci, 2013-cü, 2015-ci, 2017-ci illərdə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarında da bu mövzuya ayrıca diqqət yetirilib. Həmin forumların da nəticələri ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edib. Bu mənada, sayca beşinci olan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da, şübhəsiz ki, nəticə etibarı ilə digər məqamlarla yanaşı, Qarabağ mövzusu baxımından da vacib yekunlarla yadda qalacaq. Burada nəzərə almaq lazımdır ki, indiki tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edib. Məhz onların diqqətinə Qarabağ məsələsinin çatdırılması heç də az əhəmiyyət kəsb etməyərək beynəlxalq müstəvidə Azərbaycana verilən dəstəyin artmasına gətirib çıxarır. İştirakçılar onu da nəzərə alır ki, hazırda Azərbaycan həm regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilib, həm də beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutub, güclü dövlət və etibarlı tərəfdaş imici qazanıb. Məhz belə bir ölkə ilə əməkdaşlığın dərinləşdirilməsi digər dünya dövlətləri və təşkilatları üçün də vacib önəm kəsb edir. Onlar bu zaman Azərbaycanın həssas məsələsi olan Qarabağ münaqişəsinə də hansı prizmadan yanaşmanın vacibliyini yaxşı başa düşür. Məhz bütün bunlar Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Azərbaycana gətirdiyi əsas dividendlərdən biri sayılır.

Digər tərəfdən onu da nəzərə almaq vacibdir ki, bu gün dünyada çoxlu sayda münaqişələr mövcuddur. Bu baxımdan Azərbaycanın belə bir gərgin vaxtda dünya siyasətçilərini bir araya gətirib mövcud problemlərin müzakirə edilməsinə və çıxış yollarının axtarılmasına şərait yaratması da ölkəmizin beynəlxalq aləmdə nüfuzunu xeyli artırır, eyni zamanda, yuxarıda qeyd olunduğu kimi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına şərait yaradır. Eyni zamanda, Azərbaycan beynəlxalq və regional təhlükəsizlik məsələlərində, dövlətlərarası münasibətlərdə, münaqişələrin aradan qaldırılması ilə bağlı, eləcə də siyasi, iqtisadi və humanitar əlaqələrin genişləndirilməsində öz təcrübəsini belə forum vasitəsilə yaya bilir. Dünya ona da şahidlik edir ki, Azərbaycan işğaldan, terrordan əziyyət çəkən bir ölkədir və bununla yanaşı, qlobal terrorizmə qarşı mübarizə aparan dövlətlər sırasındadır. Ölkəmiz xeyli müddətdir qonşu Ermənistanın həm işğalına, həm də terroruna məruz qalıb. Lakin buna baxmayaraq, Azərbaycan regionda və bölgədə terrordan və işğaldan əziyyət çəkən ölkələrə həmrəylik nümayiş etdirərək, həm də onlara dəstək olmaq təşəbbüsünü göstərir. Məhz bu da Azərbaycana beynəlxalq miqyasda əlavə mühüm üstünlüklər qazandırır.

Bu qeyd edilənlərin təsdiqini Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda etdiyi çıxışlarda səsləndirdiyi fikirlərdən də aydın görmək olar. Nazir öncə qeyd edib ki, əsas məsələ səyləri bir araya gətirib, daha da ucadan səsləndirməkdir: "Çünki BMT bir qətnaməni belə hasil edə bilmir. Sülhdən yaxşı heç nə yoxdur. Çoxtərəfli prinsipə ehtiyacımız var və bunun ətrafında fikirlər yürüdərək nələrəsə nail ola bilərik. Ermənilərlə danışıqlarda iştirak edən tərəf kimi rahat şəkildə deyə bilirik ki, münaqişələr 30 ilə yaxındır hökm sürür. Münaqişə müsbət və davamlı inkişafı təmin edə bilməz. Ermənistanda bu gün böyük miqrasiya dalğaları var. Ölkədə hökm sürən yoxsulluq, insanların ölkənin gələcəyinə inanmaması onların dövləti tərk etməsinə gətirib çıxarır. Təyyarədə olarkən erməni mətbuatı ilə fikir mübadiləsi apardım. Onlara sual verdikdə dedilər ki, diaspor bizə kömək edir. Ancaq onların diasporu belə ölkənin gələcəyinə inanmır. Əsas ismarıc açıq şəkildə çatdırılmalıdır. Nə qədər güclü mövqe nümayiş etdirsək, ismarıclarımız da güclü olacaq". Məhz bununla Azərbaycan rəsmi səviyyədə forum iştirakçılarını güclü vahid mövqe nümayiş etdirməyə və onları Qarabağ münaqişəsinin, digər konfliktlərin həllinə töhfə verməyə dəvət edir. Forumda iştirak edən Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni də məhz bu mövqeni dəstəkləyir, sülh üçün vahid mövqenin vacibliyini bildirir. Onun sözlərinə görə, mədəniyyətlərarası dialoqun təşviq olunması bir anlıq hadisə deyil, bu heç vaxt bitməyən bir çağırışdır: "Mədəniyyətlərarası dialoq, sosial inklüzivlik həddən ziyadə vacibdir. Yekunda tərəqqi siyasi iradə əsasında təmin olunacaq. Biz bununla bağlı məhz bu hissləri keçiririk. Bu bizim planlarımızı irəli apara bilər. Bir faktı qeyd etməliyik ki, biz öz inamımızı və dəyərlərimizi qorumalıyıq. Biz sülh üçün dialoq qurmalıyıq, ləyaqət və qarşılıqlı hörmətə əsaslanan rəğbət göstərməliyik. Bu bizim fəaliyyətimizə veriləcək qiymətdir. "Bakı Prosesi" məhz buna həsr olunub".

Bütün bunlar "Bakı Prosesi"nin, digər məqamlarla yanaşı, Qarabağ münaqişəsi baxımından da nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini aydın nümayiş etdirir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**İşğalçı Ermənistanda real vəziyyətin təhlili burada yaxın günlər ərzində yenidən gərgin vəziyyətin hökm sürəcəyini, hətta yeni hakimiyyət dəyişikliyinə cəhdlərin olacağını deməyə əsas verir. Məsələ burasındadır ki, baş nazir Nikol Paşinyan hakimiyyətdə olduğu 1 il ərzində sosial-iqtisadi müstəvidə hansısa yenilik edə bilməyib. Hətta əksinə, bu istiqamətdə vəziyyətin daha da pisləşməsi müşahidə edilməkdədir.**

# Milyarderlə "məxməri" Baş nazirin çəkişməsi Ermənistanı yeni inqilaba sürükləyir

Paşinyana qarşı olan qüvvələr isə yaranmış vəziyyətdən faydalanmağa çalışır.

**Ermənistan parlamentinin sabiq vitse-spikeri, müxalifətdəki Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov yaranmış durumla bağlı bildirir: "Ölkəni idarəetmə ilə mitinqlərdə çıxış etməyin heç bir əlaqəsinin olmadığını aşkar etmək üçün bir il yetərlidir. Düz bir il bundan öncə Ermənistan parlamenti 45 səs lehinə, 55 səs əleyhinə olmaqla Nikol Paşinyanı baş nazir vəzifəsinə seçməmişdi. Nikol Paşinyanın baş nazir vəzifəsinə namizədliyinə səs verməyən və onu dəstəkləməyən yeganə siyasi qüvvə Respublika Partiyası olub. Lakin bunu deyəni dinləyən lazım idi. Siyasi mübarizəni nifrətə çevirənlər və yaxud konfromist, qastrolyorlara qarşı tarix qəddar və amansızdır. İndi Paşinyanı da eyni tale gözləyir".**

Respublika Partiyası ilə yanaşı digər qüvvələrin də Paşinyana qarşı aktiv fəaliyyətə keçməsi müşahidə olunur. "Qraparak" qəzeti bu günlərdə belə bir məlumat yayıb ki, "Daşnaksütyun" Partiyası da Ermənistan hökumətinə qarşı etimadsızlıq elan edilməsi prosesini başlatmaq niyyətindədir: "Partiya cari ilin may-iyun aylarında hökumətdən ictimai narazılığın pik həddə çatacağını güman edir. Buna əsas səbəb isə dövlət aparatının optimallaşdırılması siyasəti, "Qazprom Ermənistan", "Ermənistan Elektrik Şəbəkələri" və "Araratsement"də başlayacaq ixtisarlar olacaq. "Daşnaksütyun", həmçinin, "İşıqlı Ermənistan" və "Çiçəklənən Ermənistan" partiyaları ilə eyni anda deputat mandatlarından imtina vasitəsilə böhranın yaradılması variantlarını da müzakirə edir. Bununla belə, mənbəmiz bu ssenarini reallaşdırmağın çətin olduğunu, amma tərəflərin bu məsələlərin müzakirəsini davam etdirdiyini deyib". Bu durumda yayılan məlumata görə, Paşinyan ilk növbədə böyük maliyyə dayaqları olan "Çiçəklənən Ermənistan" partiyasını və onun lideri Haqik Tsarukyanı sıradan çıxarmağı düşünür. Məsələ ilə bağlı "Qraparak" qəzetinə "Çiçəklənən Ermənistan" partiyasından aşağıdakılar deyilib: "Hakimiyyət iqtisadi bazarın yenidən bölüşdürülməsinə gedib Haqik Tsarukyanı deputat mandatından məhrum edərsə, biz də cavab olaraq onunla birlikdə deputat vəsiqəmizi təhvil verəcəyik. Biz konstitusiya üzrə mütəxəssislərdən atacağımız addım barədə soruşmuşuq. Bizə deyilib ki, konstitusiyaya əsasən, parlamentin 30 faizini müxalifət təşkil etməlidir. "Çiçəklənən Ermənistan" partiyasından olan deputatlar mandatdan imtina edərsə, parlament antikonstitusion olacaq. Bu isə növbədənkənar seçkilərin keçirilməsinə səbəb olacaq". Bununla yanaşı xatırladaq ki, "Çiçəklənən Ermənistan" partiyası və parlamentdəki "Tsarukyan" blokunun lideri, milyarder Haqik Tsarukyana qarşı cinayət işinin başlanması üçün ölkənin baş prokuroruna müraciət edilib. Başqa bir məlumata görə, Ermənistan hakimiyyəti parlamentdəki müxalif "Çiçəklənən Ermənistan" partiyasının fraksiyasını parçalamağı planlaşdırır.



Bütün bunlarla bağlı "1-in.am" portalı yazır: "Vətəndaş qərarı" partiyası icra qurumunun katibi Suren Saakyan parlament sədri Ararat Mirzoyana deputat, "Çiçəklənən Ermənistan" partiyası fraksiyasının başçısı Haqik Tsarukyanın səlahiyyətinin dayandırılması məsələsi üzrə Konstitusiya Məhkəməsinə müraciət etmək xahişilə ərizə göndərib. Suren Saakyan Haqik Tsarukyan haqqında Konstitusiyanın 98-ci maddəsinin ikinci hissəsinə əsaslanmaqla - Konstitusiyanın 95-ci maddəsi pozulduğu halda deputat səlahiyyətinin dayandırılması - cinayət işi qaldırmaq xahişilə baş prokuror Artur Davtyana müraciət edib. Suren Saakyan öz tələbini Haqik Tsarukyanın son müsahibədə səsləndirdiyi açıqlamalarla əsaslandırır. Söhbət qanunsuz sahibkarlıq fəaliyyətindən gedir. Saakyanın sözlərinə görə, bu təsdiq olunacağı halda, göstərilən deputatın səlahiyyətləri dayandırılmalıdır.

"Vətəndaş qərarı" partiyasının bəyanatında deyilir: "Ermənistanda biznes dövlət idarəçiliyi sistemindən ayrılmalıdır, vəssalam". "Mənim addımım" fraksiyasının başçısı Lilit Makunts bildirib ki, parlament sədri Ararat Mirzoyan bu haqda bəyanatla çıxış edəcək.

Politoloq Levon Şirinyan biznes və siyasəti bir-birindən ayırmağa razılaşsa da, bununla belə hesab edir ki, proses müəyyən təhlükələri birləşdirə bilər: "Siz bilirsiniz ki, "Çiçəklənən Ermənistan" bir şəxsə və onun nüfuzuna söykənən partiyalardan biridir, indi belə bir tələb irəli sürülsə və Haqik Tsarukyan mandatdan imtina etsə, partiya necə olacaq? İkinci önəmli durum bundan ibarətdir ki, inqilabsonrası ölkələrdə istənilən xırda məsələ çaxnaşma və qarışıqlıq törədə bilər. Bu vəziyyət, doğrudan da, qarışdırıcı ola bilər".

Həmsöhbətimiz vurğulayıb ki, siyasi çoxluqla güc arasında dialoq gərəkdir: "Nəticələrin nəyə gətirəcəyini söyləməyə çətinlik çəkirəm, hətta parlament böhranı meydana çıxa bilər, deməli, tələsik addımlar əvəzinə düşünmək, incələmək gərəkdir. Bu təkcə hüquq məsələsi deyil, həm də ölkənin sabitliyi məsələsidir. İnqilabdan sonra inkişafa can atan dövlətə sabitlik lazımdır, təsəvvür edirsiniz bu halda hansı durum yarana bilər? 1 mart işinin araşdırılmasına paralel belə tələbi təqdim etmiş belə gərgin durum yaratmağın lazım olub-olmadığını deməyə çətinlik çəkirəm".

Şirinyanın sözlərinə görə, problem təzəlikcə meydana çıxmayıb və seçkilərədək qaldırılmalıydı: "Köçəryan xarici dəstəyi olan kriminal kapitalın saxlanmasında maraqlıdır. Görünür, parlamentdən kənar gücün irəli sürdüyü tələb daha yaxşıdır, amma təsəvvür edirsiniz bundan yararlananlar nə qədər olacaq? Düşünürəm, hansısa bir anda sakitcə ayaq saxlamaq, nəfəs dərmək və yalnız sonra irəliləmək gərəkdir. Mən qarışıqlığı son dərəcə təhlükəli sayıram".

Polittexnoloq Karen Köçəryan qeyd edib ki, irəli sürülən tələb hər bir siyasi gücün və ya şəxsiyyətin qərarıdır: "Necə hərəkət etməyin lazım gəldiyini kəsdirəcək uyğun qurumlar var. Biznes və siyasətin ayrılmasına gəlincə, fikrimcə, kürəsəl planda bunun həlli verilib. Böyük hesabla, bu gün siyasətdə son 20 ildə görməyə alışdığımız biznesmenlər yoxdur. Haqik Tsarukyana gəlincə, onun müstəqil deputat olduğu doğru deyil. Haqik Tsarukyan böyük partiyanın lideridir və fərq çox böyükdür. "Çiçəklənən Ermənistan" parlamentdə artıq on ildən artıqdır ikinci gücdür, indi bu adama "mandatını yerə qoy" demək elə də asan proses deyil. Faktlar varsa, başqa məsələ, məndə fakt yoxdur".

**Həmsöhbətimiz hesab etmir ki, tələb müsbət həllini tapar, amma o müsbət çıxacağı halda siyasi meydanda müsbət durumun yaranmayacağına əmindir: "Düşünmürəm ki, konkret faktlar var, deyilir, təki deyilsin. Bununla belə, hansısa faktlar olacaqsa, siyasi meydanda çətinliklər olacaq, çünki, təkrar edirəm, "Çiçəklənən Ermənistan" sıradan bir partiya deyil, Haqik Tsarukyan isə bu gücün lideridir". Hesab edilir ki, yaranmış vəziyyətdə Paşinyan və Tsarukyan arasında dərinləşən ziddiyyət fonunda sonuncu müxalif qüvvələri öz ətrafında birləşdirib Ermənistanda yeni inqilaba cəhd edəcək.**

***Nahid SALAYEV***

# Aqrar sahəmizin sığorta dərdi - bu sığorta növünün cəmi 0,2 faiz payı var...

**Aqrar sahənin inkişafına bu gün dövlət tərəfindən xüsusi diqqət və qayğının göstərilməsi heç kimə sirr deyil. Görülən tədbirlərin nəticəsidir ki, sözügedən sahədə çalışanların sayı getdikcə artır. Həmçinin, aqrar sferada məhsul istehsalı həcminin və çeşidinin artması müşahidə olunur. Belə ki, cari ilin birinci rübündə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi istehsal həcmi 3,6 faiz, o cümlədən bitkiçilik 24,7 və heyvandarlıq 2,8 faiz artıb.**




32 faiz çox tərəvəz istehsal olunub, meyvə-tərəvəz ixracının həcmi 28,2 faiz artıb. Bütün bunlar onun nəticəsidir ki, dövlət kənd təsərrüfatına çox böyük dəstək, yardım göstərir. Güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar, texnika verilir.

Amma bu sahədə müəyyən çatışmazlıqlar da mövcuddur. Məsələn, aqrar sığorta sahəsində hələ də ciddi problemlər yaşanır. Xatırladaq ki, bu məsələyə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev də toxunub. İlham Əliyev bildirib ki, Azərbaycanda kənd təsərrüfatı texnoloji sahəyə çevrilməlidir və burada yeni mexanizmlər, o cümlədən aqrar sığorta mexanizmi tətbiq edilməlidir. Real vəziyyətin təhlili isə aqrar sığorta baxımından, hələ ki, problemlərin mövcudluğunu göstərir. Məsələnin bu tərəfinə nəzər salan iqtisadçı-ekspert Rəşad Həsənov bildirir: "Azərbaycanda aqrar sahədə sığorta mexanizmi, demək olar ki, yoxdur. Düzdür, son bir neçə ildə yığım və ödənişlərlə bağlı artımlar var. Amma burada iştirakçılar, əsasən böyük şirkətlər, holdinqlərdir və bu da çox az saydadır. Ölkənin sığorta bazarında aqrar sığortanın 0,2 faiz ətrafında yığım və ödəniş üzrə payı var". Onun sözlərinə görə, iqtisadi fəaliyyətlər arasında aqrar fəaliyyət ən risqlilərdəndir: "Bizdə, xüsusilə aqrar sektorda maliyyə resurslarına çıxış imkanları məhduddur. 2 il bundan əvvəl daşınar əmlakın girovluğu ilə bağlı qaydaların təsdiq edilməsinə baxmayaraq, hələ də bank sektoru aqrar sahəni maliyyələşdirməkdən çəkinir. Çünki burada sığorta mexanizmi yoxdur. Sığorta olmadığı üçün də bankın bu sektora yönəltdiyi vəsaitlər üzrə risq yüksəlir". Ekspert qeyd edib ki, bu sahədə kateqoriyalar çox azdır: "Cəmi 4 istiqamət üzrə 6-7 məhsul növünə sığorta verilir. Bu məhsulların da bir neçəsi Azərbaycan bazarında o qədər də rentabelli fəaliyyət istiqaməti hesab olunmur. Eyni zamanda, hadisələrin sayı məhduddur. Risqlərin təkrar sığortası ilə bağlı mexanizmlər zəif inkişaf edib".

İndi əsas gözləntilər qeyd olunan bu problemlərin aradan qaldırılması ilə bağlıdır. Belə ki, "Aqrar sığorta haqqında" yeni qanun layihəsi hazırlanıb. Yeni qanun aqrar sahədə risqlərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin ötən həftə keçirilən iclasında Kənd Təsərrüfatı nazirinin müavini İlhamə Qədimova bildirib ki, "Aqrar sığorta haqqında" qanun layihəsində müştərək sığorta mexanizminin yaradılması nəzərdə tutulur: "Məqsəd sığorta haqlarının ödəməkdə çətinliklə üzləşəcək fermerlərə kömək etməkdir. Əvvəlki qanunvericilikdə də dövlətin aqrar sığortaya dəstəyi əks olunmuşdu. Yeni mexanizm dövlətin bu sahədə dəstəyinin təmin edilməsinə imkan yaradacaq. Artıq ölkəmizdə aqrar sığorta orqanı formalaşdırılacaq və fermerləri onları maraqlandıran sualları cavablandıracaq bir orqanı görəcəklər. Bu, aqrar sahədə sığortanın tətbiqində maraqlı bir orqan olacaq. Sığorta şirkətlərinin kənd təsərrüfatı kimi risqli sahədən çəkinməməsinin təmin edilməsinə ehtiyac var. Buna görə aqrar sığortaçıda da maraq yaradılacaq". Onu da bildirək ki, qanun layihəsində aqrar sığorta üzrə təminat verilən risqlərin siyahısı müəyyənləşib. Qanun layihəsinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları aqrar sığorta predmetləri üzrə aşağıdakı risqlərin bir və ya bir neçəsindən sığorta qaydalarına əsasən sığortalanır: 1. Təbiət hadisələri, o cümlədən təbii fəlakətlər, 2. Yanğın, 3. Qəzalar, 4. Yoluxucu xəstəliklər və zəhərlənmələr, 5. Vəhşi heyvanları hücumu və xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu, 6. Üçüncü şəxslərin hərəkətləri.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev isə bildirir ki, Azərbaycanda aqrar sığortanın tətbiqi üçün ilkin mərhələdə 9 milyon manat nizamnamə kapitalına ehtiyac var: "Bu sahədə subsidiyalaşdırma üçün 1-ci il 8,5 milyon manat, 2-ci il 10 milyon manat, növbəti illərdə 12,5-13 milyon manat vəsait lazım olacaq. Aqrar sığorta mexanizminin tam gücü ilə işləyəcəyi 10-cu ildən sonra isə həmin məbləğ azalacaq. Çünki bu növ sığorta özünü maliyyə cəhətdən təmin edəcək". İndilikdə hesab edilir ki, bu sığorta növünün tətbiqinin sürətləndirilməsinə ciddi ehtiyac var. Çünki hazırda mövcud olan sığorta sistemində dəstək, əsasən birtərəflidir. Hesab olunur ki, sığorta şirkətləri də bu prosesdə dəstəklənməlidir. Yəni sığorta şirkətləri kənd təsərrüfatı kimi ağır risqin olduğu bir sahədə fəaliyyətə daxil olarkən dəstək görməlidir. Stimullaşdırıcı mexanizm təkcə fermerin deyil, eyni zamanda sığorta şirkətinin də prosesdə iştirakını təşviq etməyə yönəlməlidir. Məhz bu məqamlar yeni qanunda əksini tapıb. Burada digər bir məsələ odur ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində çalışanların 97 faizi subyekt olaraq ailə təsərrüfatlarıdır. Bəzi ailə təsərrüfatlarının maliyyə vəziyyəti çətindir və onlar sığorta şirkətlərinin müəyyən etdiyi sığorta pulunu ödəmək qabiliyyətində deyil. Bu məsələnin də həllini tapması vacib sayılır.

***Tahir TAĞIYEV***

# 2012-ci ildə qeyri-neft ixracı 1,9 milyard, 2018-ci ildə 1,6 milyard dollar - azalma, ya...

**Ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahənin ixracda payının artırılması prioritet məsələlərdən biridir. Bütün bunlarda əsas məqsəd ölkə iqtisadiyyatının neftdən asılılığını minimum səviyyəyə endirməkdir. Ancaq statistik rəqəmlərə baxanda görürük ki, qeyri-neft ixracı əvvəlki illərlə müqayisədə artmaq əvəzinə azalıb.**




*"İxracdan əldə edilən vəsaitlər aşağı düşsə də, gəlir norması daha yüksəkdir"*

Gömrük Komitəsinin məlumatına görə, 2012-ci ildə Azərbaycanın qeyri-neft ixracı 1,9 milyard dollar olub. Ancaq 2017-2018-ci illərdə bu göstərici azalaraq 1,5-1,6 milyard dolları arasında dəyişib. Halbuki, bu müddətdə 1dollar rəsmi olaraq 1,7 manata qədər bahalaşıb. Ən başlıcası isə, 2017-2018-ci illər ərzində ölkədə qeyri-neft sektorunu stimullaşdırmaq üçün genişmiqyaslı təşəbbüslər göstərilib, müxtəlif proqramlar qəbul edilib, layihələrin həyata keçirilməsinə start verilib. Ancaq bütün bunlara rəğmən, qeyri-neft ixracının həcmini devalvasiyadan əvvəlki səviyyəyə çatdırmaq hələ ki,

***Müslüm İbrahimov:** "İxrac ona görə azalıb ki, qeyri-neft sektoruna aid olan istehsal, emal, qida və digər sənaye sahələri yenidən rekonstruksiya olunur"*

mümkün olmayıb.

Adətən daxili devalvasiya idxalı bahalaşdırır, yerli istehsala dəstək verir. Xarici devalvasiya isə əksinə, idxalı ucuzlaşdırsa da, yerli istehsalın rəqabət qabiliyyətini azaldır. Azərbaycanda devalvasiyadan əvvəl tez-tez belə fikirlər səslənirdi ki, manatın dollara nisbətdə baha olması yerli istehsalın rəqabət qabiliyyətini aşağı salır və bu da ixraca mənfi təsir göstərir. 2015-ci ildə manat 2 dəfə devalvasiyaya məruz qaldı. Uzun müddət ABŞ dollarına münasibətdə sabit olan manat il ərzində 50 faizə qədər dəyər itirdi. Ancaq bütün bunlara baxmayaraq, ölkədə devalvasiyanın mal ixracına töhfəsi hələ ki, nəzərə çarpmır.

Bütün bunların fonunda, Azərbaycanda əvvəlki illərlə müqayisədə qeyri-neft ixracı niyə azalıb? Ekspertlər bunun səbəbini nə ilə əlaqələndirirlər?

**Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Müslüm İbrahimovun sözlərinə görə, bunun bir neçə səbəbi var:** "Neftin dünya bazarında ucuzlaşması səbəbindən gəlirlər azaldı. Daha sonra manat devalvasiyaya məruz qaldı. Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı islahatlara start verildi. Reallıq ondan ibarətdir ki, ölkə iqtisadiyyatının yenilənməsi baş verir. Son iki-üç ildə qeyri-neft məhsullarının istehsalına daha çox diqqət göstərilir. Bununla əlaqədar idxal artdı. Nəyə görə? Ona görə ki, bununla bağlı lazım olan avadanlıqlar gətirilir. İxrac ona görə azalıb ki, qeyri-neft sektoruna aid olan istehsal, emal, qida və digər sənaye sahələri yenidən rekonstruksiya olunur. Təkcə xammalın yox, bir neçə mərhələdə emal olunmuş məhsulun ixrac edilməsi nəzərdə tutulub. Bütün bu proseslər ixracın azalmasına gətirib çıxardı. O səbəbdən əvvəlki illərlə müqayisədə qeyri-neft ixracında azalma var. Nəzərə almaq lazımdır ki, iqtisadiyyatın rekonstruksiyası vaxt aparır. Bu zaman istehsal və ixracda azalmanın olması qaçılmazdır. Yeni məhsulların istehsalı, bununla bağlı müqavilələrin imzalanması, yeni bazarların axtarılması, tapılması və s. vaxt tələb edir. Sözügedən səbəblər üzündən ixrac azalmağa başladı. Bənzər problemlə Rusiya da üzləşdi, amma artıq bu ölkənin ixracı artmağa başlayıb. Digər tərəfdən, bu gün Azərbaycan elə məhsullar ixrac edir ki, beş il əvvəl bunu etmirdi. İxracdan əldə edilən vəsaitlər aşağı düşsə də, gəlir norması daha yüksəkdir. Ona görə ki, müyyən məhsullar əvvəl xammal və yarımxammal formasında satılırdı. İndi isə həmin məhsullar emal olunaraq yüksək qiymətə satılır. Bu isə o deməkdir ki, mənfəət norması daha yüksək olur. Mənfəət norması deyəndə söhbət əlavə dəyərin daha da yüksək olmasından gedir".

***Vidadi ORDAHALLI***

# Bakıda mütəşəkkil dilənçi mafiyası - itkin düşmüş uşaq dilənçiliyə məhkum durumda tapıldı...

## *Yusif Bəkirov: "10 yaşlı uşağın məcburi diləndirilməsi..."*

**Bu gün dilənçiliyə təhrik edilən uşaqların əməyinin istismarı bir sıra ölkələrdə başlıca problemlərdən biridir. Etiraf etməliyik ki, Azərbaycanda da qaraçılar tərəfindən dilənçiliyə cəlb olunan uşaqların sayı az deyil. Bəzən belə uşaqlar valideyn himayəsindən məhrum qalan uşaqlar olsa da, aralarında ata-anası tərəfindən dilənməyə məcbur edilənlər də az deyil.**

Ancaq dilənən uşaqların arasında elələri var ki, onlar dilənçi mafiyası tərəfindən oğurlanaraq məcburi olaraq dilənməyə təhrik edilir. Hüquq-mühafizə orqanlarının əməkdaşları dəfələrlə itkin düşmüş, valideynləri tərəfindən axtarılan uşaqların hansısa ərazidə diləndirildiyini aşkar edərək, onları valideynlərinə təhvil veriblər.

Bu günlərdə polis ötən ay itkin düşmüş və qaraçılara qoşularaq Bakının iri ticarət mərkəzlərində dilənçilik edən oğlanı Nərimanov parkında tapıb. Müəyyən olunub ki, Bakıda qaraçılar 10 yaşlı oğlan uşağını Bakının küçələrində dilənçiliklə məşğul olmağa məcbur ediblər.

Sözügedən faktı Azərbaycan Uşaqlar Birliyi (AUB) aşkarlayıb. Olayla bağlı AUB sədri Kəmalə Ağazadə mətbuata bildirib ki, bu günlərdə polis əməkdaşları AUB-nin Reinteqrasiya Mərkəzinin sığınacağına aprelin əvvəllərində itkin düşmüş üçüncü sinif şagirdini gətiriblər. Valideynləri üç gün ərzində uşağı axtarıb tapmayandan sonra hüquq-mühafizə orqanlarına müraciət ediblər və yerli telekanallardan birində elan veriblər. Nəticədə polislər uşağı Nəriman Nərimanov adına parkın ərazisində dilənçilik edərkən tapıblar: "Uşaq deyib ki, onlarla qonşuluqda yaşayan yeniyetmə dilənçilər onu aldadaraq bu işə cəlb ediblər. Bu vaxt ərzində uşaqlar özlərinin pul diləndikləri bütün nöqtələri ona başa salmağa macal tapıblar. Həmin yerlər Binə qəsəbəsindəki və "Neftçilər" metrostansiyası yaxınlığındakı iri ticarət mərkəzləri olub. Oğlanın sözlərinə görə, onunla birlikdə dilənən uşaqlar elə həmin yerlərdə küçədəcə yatırlar və elə orada nə tapsalar, onu yeyirlər".

10 yaşlı uşağın məcburi olaraq dilənçiliyə vadar edilməsi onu deməyə əsas verirmi ki, Bakıda dilənçi mafiyası var? 10 yaşlı uşağın oğurlanıb diləndirilməsində dilənçi mafiyasının əli varmı?

Bildirək ki, bu cür hadisələri adətən xarici kinolarda izləyərdik. Qaraçılar yolda gedən kimsəsiz saydıqları uşağı şirnikləndirici sözlə özünə cəlb edib, daha sonra isə onu diləndirməyə təhrik edirlər.

Qeyd etdiyimiz kimi, haqqında bəhs etdiyimiz 10 yaşlı həmin uşaq dilənçilər tərəfindən oğurlanaraq məcburi dilənməyə təhrik edilib. Ekspertlər bildirirlər ki, bu kimi faktlar yetərincədir. Elə uşaq var ki, o, evdən çölə nəsə almaq üçün gedərkən qaraçılar həmin uşağı şirnikləndirici sözlə aldadıb aparırlar. Daha sonra həmin uşaq dilənçiliyə məcbur edilir. Belə bir faktın ölkəmizdə qeydə alınacağını düşünməzdik. Ancaq 10 yaşlı uşağın dilənçilər tərəfindən məcburi diləndirilməsi bizi düşündürür.



*"Valideynlərlə maarifləndirmə işi, dilənçiliyə sövq edilmiş uşaqlarla isə sosial reabilitasiya işi aparılmalıdır"*

İnzibati Xətalar Məcəlləsinin avaralıqla məşğulolma ilə bağlı xüsusi maddəsi var. Bu şəxslərlə məşğul olan orqan Daxili İşlər Nazirliyidir. Dilənçiliklə məşğul olan şəxslər barəsində protokol tərtib olunur və müəyyən məbləğdə cərimə edilirlər. Dilənçiliklə məşğul olan şəxs öz yetkinlik yaşına çatmayan övladını da bu işə cəlb edirsə, müəyyən məbləğdə cərimə olunur. Bu kifayət etmədikdə isə, şəxs barəsində 15 günədək inzibati həbs seçilə bilər. Məhz buna görə ölkədə uşaq əməyini istismar edərək onları dilənməyə məcbur edənlərin sayı kifayət qədərdir. Məcbur edənlər isə heç də hər zaman uşağın valideynləri deyil. Bunlar müxtəlif cinayətkar qruplaşmaların üzvləri, dilənçiliklə məşğul olan mütəşəkkil dəstə də ola bilər.

Mətbuatda apardığımız araşdırma zamanı məlum oldu ki, dilənçilərin 40 faizi zorla saxlanır və ancaq yemək üçün işləyirlər. Adətən onlar heç kimləri olmayan rayon adamlarıdır, o cümlədən uşaqlardır. Qeyd olunur ki, qaraçılar adətən övladlarına uşaq yaşlarından dilənçilik öyrədirlər. Uşaq nə qədər körpədirsə, pul o qədər yaxşı qazanır.

Onu da bildirək ki, uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə keçirilən reydlər zamanı 450 uşaq müəyyən edilib. Bu faktı Azərbaycan daxili işlər nazirinin birinci müavini general-leytenant Vilayət Eyvazov Milli Məclisdə məlumat verərkən bildirib. O qeyd edib ki, uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə keçirilən reydlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq müəyyən edilib: "Aparılan yoxlamalarla həmin uşaqların insan alverinin və ya məcburi əməyin qurbanı olması təsdiqlənməyib. Lakin müvafiq problemlərin aradan qaldırılması, uşaqlara qayğı və yardımın göstərilməsi məqsədilə yerli icra hakimiyyətləri yanında komissiyalara, qəyyumluq və himayə orqanlarına 760 material göndərilib, övladlarının təlim-tərbiyəsilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 207 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb".

**10 yaşlı uşağın dilənçilər tərəfindən diləndirilməsi faktı barədə fikir bildirən Uşaq Hüquqlarının Müdafiə Liqasının sədri Yusif Bəkirov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bir vaxtlar filmlərdə uşaqların dilənçilər tərəfindən oğurlandığını izləyərdik.** Təəssüf ki, bu gün Azərbaycan cəmiyyətində 10 yaşlı uşaq dilənçilər tərəfindən məcburi dilənçiliyə təhrik edilir. Halbuki, hər kəs o uşağı axtarıb: "Sevindirici haldır ki, hüquq-mühafizə orqanları və vətəndaş cəmiyyətinin birgə səyi nəticəsində bu kimi hadisələrin üstü açılır".

Y.Bəkirov onu da vurğuladı ki, 10 yaşlı uşağın dilənçilər tərəfindən oğurlanıb diləndirilməsi həm valideynlərin, həm də aidiyyəti qurumların laqeydliyi nəticəsində baş verib: "Onu da deyim ki, elə uşaqlar var ki, onlar valideynlərinin israrı ilə dilənirlər . Uşaqlarını dilənməyə göndərən üzüqara valideynlərə gəldikdə isə onlar da sərt cəzalanacaqları barədə xəbərdarlıq almalıdırlar.

İşsiz valideynlər dövlət tərəfindən işlə təmin edilməli və ya ixtisasdəyişmə hüququ qazanmalıdırlar. Bütün bu profilaktik tədbirlər küçələrdə dilənçilərin sayını azalda bilər. Valideynlərlə maarifləndirmə işi, dilənçiliyə sövq edilmiş uşaqlarla isə sosial reabilitasiya işi aparılmalıdır. Belə ki, onların çoxu stress yaşayıb. Bu gün isə vəziyyət belədir: polis dilənçi uşaqları tutur, qeydiyyatda olduğu yaşayış yerinə göndərir. Qısa bir zaman keçdikdən sonra uşaqlar yenə əvvəlki yerlərinə qayıdırlar".

***Günel CƏLİLOVA***

Ölkə parlamentində çox maraqlı və aktual olan mövzu ətrafında gərgin müzakirə aparılıb. Milli Məclisin plenar iclasında Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun 2018-ci il üzrə illik məlumatının müzakirəsi zamanı deputat Araz Əlizadə ölkədə "seks turizmi"nin inkişafından narahatlıq ifadə edib:



*Araz Əlizadə: "Buna qarşı ciddi mübarizə aparmaq lazımdır"*

*Tahir Kərimli: "Biz qonşularla bezdik və köçmək məcburiyyətində qaldıq"*

*Qabil Hüseynli: "Ümumyaşayış qaydalarına zidd olan hostel fəaliyyəti həm də əxlaqi aşınmaya səbəb olur"*

"Azərbaycanda "seks turizmi" inkişaf edir. Biz onsuz da bunu bacarmayacağıq. Gəlib pulla və s. yollarla qızlarımızı yoldan çıxarırlar. Buna qarşı ciddi mübarizə aparmaq lazımdır".

O xatırladıb ki, Rusiyada çoxmənzilli binalarda hostellər təşkil edilməsinə icazə verilmişdi: "Amma sonradan bu məsələdə dəyişiklik etdilər. Dəyişiklikdən sonra binaların birinci mərtəbəsində hostel təşkil etməyə icazə verdilər, girişi də ayrı olmalıdır. İnsanlar öz evlərində rahat yaşaya bilmirlər. Biz qanunvericiliyə bu istiqamətdə dəyişiklik etməliyik".

# Bakıdakı bəzi "novostroyka" mənzillərdə "seks turizmi" biabırçılığı - xəbər parlamentə də çatdı...

**Deputat Tahir Kərimli də çıxışında bu məsələni qaldırıb:** "İnsanlar evlərini hostellərə, mehmanxanalara çevirirlər. 2017-ci ildə qanuna dəyişiklik olundu ki, çoxmənzilli binalarda qeyri-yaşayış sahəsinin hostelə çevrilməsi üçün icazə lazım deyil. Amma əvvəlki qanunda qonşuların mənafeyi nəzərə alınırdı. Yeni qanunda bu məsələ nəzərə alınmır. Azərbaycanda masaj salonlarına, barlara nəzarəti gücləndirmək lazımdır. Vaxtilə mən ərəblərlə bağlı məsələ qaldırmışdım. Hazırda yaşadığım ərazidə hər kəs sözünü deputata deyir. Bəs deputat kimə desin?!". Tahir Kərimli qonşuları ilə birlikdə yaşadığı binadan köçmək məcburiyyətində qaldığını bildirib. Deputat parlamentdə çıxışı zamanı qeyd edib ki, o, paytaxtın mərkəzi küçələrindən olan Zərifə Əliyeva küçəsində çoxmənzilli yaşayış binalarının birində yaşayır: "Biz qonşularla bezdik və köçmək məcburiyyətində qaldıq. Kimsə özünü qanundan yuxarı göstərir. Belə şeylərə şərait yaradır. Bizim küçə mərkəzi küçədir. Oradan dünyanın hər yerindən gəlib keçən dövlət və hökumət nümayəndələri var. Birdən bu hal kiminsə qabağına çıxar. Ona görə də binaların belə yuvalara çevrilməsinin qarşısı alınmalıdır". Deputatların qaldırdığı bu problemlə rastlaşan sadə vətəndaşlar da az deyil. Göründüyü kimi, buna şəraiti qanunvericilikdə olan boşluq yaradır. Hansısa imkanlı adam yeni tikilidə bir neçə mənzil alır və oranı yaxşı təmir etdirdikdən sonra tam təchiz edilmiş halda turistlərin ixtiyarına buraxır. Şərtlər otellərdən yaxşı olduğu üçün, turistlər daha çox belə hostellərdə qalmağa üstünlük verirlər. Qonşular həmin mənzildəki biabırçılığa etiraz edəndə, ev sahibi hostel kimi fəaliyyət göstərmək hüququnun olduğunu, mənzili isə müqavilə əsasında hansısa turizm şirkətinə verdiyini deyir. Göründüyü kimi, bu boşluq da deputatların dediyi kimi, "seks turizmi"nin inkişafına şərait yaradır və vətəndaşları haqlı narahat edir. Yaranmış biabırçı mənzərənin qarşısını necə almaq olar?

**Bənzər problemlə üzləşənlərdən biri də sabiq dövlət müşaviri Qabil Hüseynli olub.** O bir neçə dəfə media vasitəsilə yaşadığı mənzilin ətrafında əxlaqsızlığın baş alıb getməsinə toxunub və hər dəfə də deyib ki, problem həllini tapmır. Artıq bənzər halların geniş vüsət almasına görə məsələnin parlamentdə müzakirəsini nəzərə alıb Q.Hüseynli ilə bu mövzuda danışmaq qərarına gəldik. O, qəzetimizə bildirdi ki, bu problemin artıq parlament səviyyəsində müzakirə olunması məsələnin ciddiliyindən xəbər verir: "Belə mənzillər ya hostel, ya da masaj salonu kimi fəaliyyət göstərir. Hər iki halda belə yerlərdə əxlaqsızlıq hökm sürür. Bununla mübarizə aparmağın yolu çox sadədir. Əlaqədar qurumlar bir balaca dəqiq araşdırma aparsalar görərlər ki, nə hosteldən söhbət gedir, nə də masajdan. Oralardakı fəaliyyətin bir adı var - eskort xidmət. Mən bununla çox mübarizə aparmışam. Məlum olur ki, bu işlərin arxasında böyük adamlar dayanır. Şikayətlərdən sonra belə mənzillərdəki fəaliyyət müvəqqəti dayanır, sonra dərhal açılır. Həmin məkanlarda narkotik maddələr də satılır. Üzərrik yandırırlar ki, iy getsin. Güya bədnəzərdən özlərini qoruyurlar. Günün istənilən vaxtında görürsən ki, üzərrik yanır. Bu qədər də bədnəzərdən qorunmaq olar? Ümumyaşayış qaydalarına zidd olan hostel fəaliyyəti həm də əxlaqi aşınmaya səbəb olur. Ölkəmizdə kirayə bazarı geniş inkişaf edib. Buna normal baxıram. Adamlar var ki, bundan yaxşı qazanc da götürürlər. Hər halda, qanunvericiliklə ümumi yaşayış yerndə, girişi eyni olan binalarda hostel fəaliyyətinin qadağan edilməsi zəruridir. Bəzi insanlar yalnız çox pul qazanmağı fikirləşdikləri üçün, evlərini hostel kimi aylıq deyil, günlük kirayəyə verirlər. Amma gəlin görək orda nələr baş verir? Axı qapı qonşuda kiminsə ailəsi, uşağı yaşayır. Əgər Rusiya kimi ölkə insanların mənafeyini nəzərə alıb, bu istiqamətdə müəyyən məhdudiyyətlər tətbiq edibsə, bizdə də olunmalıdır. Sizi inandırıram ki, vətəndaşların etdiyi şikayətlər lazımi şəkildə araşdırılmır. Bu biznesin arxasında güclü adamlar durduğu üçün, onlara batmaq çətindir. Qanunvericiliklə sərt qaydalar müəyyənləşməsə, vəziyyət daha da kritikləşəcək".

*Məhəmmədəli QƏRİBLİ*

Müğənni Elnarə Xəlilova "Baku Medical Plaza"da xəstəyə səhv diaqnoz qoyulması barədə sosial şəbəkədə məlumat yazıb. Müğənni qeyd edir ki, bu cür xəstəxanaların lisenziyası əllərindən alınmalı və birmənalı bağlanmalıdırlar. Onun sözlərinə görə, bu klinikalar adam öldürdüklərinə görə hələ bir 35 min manat pul da alırlar.




*"...həqiqətə uyğun olmayan yazılar yazılmaqdadır"*

İfaçı "Baku Medical Plaza"da 40 yaşlı qadının ana olduqdan sonra səhhətinin pisləşməsinə münasibət bildirib: "Mənim bir rəfiqəmi də az qalmışdı ki, burda öldürsünlər. O da ana olmağa gəlmişdi. Allahsızlar qanı 1 müsbət olana mənfi 4 qan qrupu çıxarmışdı. Təsəvvür belə etmək istəmirəm, əgər ona orada qan vurulsaydı, nələr ola bilərdi… Yazıqlar olsun! Belə həkimlərə ar olsun. Adamı şikəst eləməkləri azmış kimi, hələ bir pul da istəyirlər. Məhkəməyə verib bunlardan 117 min almaq lazımdır". Qeyd edək ki, 117 saylı orta məktəbin müəllimi, 40 yaşlı Lətafət Xanoğlan qızı Şirəliyeva bu il martın 2-də "Baku Medical Plaza"da ana olduqdan sonra səhhəti pisləşib. Qadının həyat yoldaşının dediklərinə görə, kor bağırsağı partlayan Lətafətə klinikada səhv diaqnoz qoyulub.

Müğənni E.Xəlilovanın sosial şəbəkədə "Baku Medical Plaza" haqqında yazdığı ittihamlara cavab öyrənmək üçün klinikanın özü ilə əlaqə saxladıq. "Baku Medical Plaza"nın marketinq şöbəsinin rəhbəti Aysel Rizayeva "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son günlər bəzi kütləvi informasiya vasitələrində Lətafət Şirəliyevanın ağır xəstəliyi mövzusunda klinikanın işgüzar nüfuzuna xələl yetirən, həqiqətə uyğun olmayan yazılar yazılmaqdadır. L.Şirəliyevanın həyat yoldaşının söylədikləri təhrif olunaraq saytlarda dərc olunub: "Klinikamız özəl tibb müəssisəsi olsa da, xəstəyə göstərilən tibbi xidmətlər üçün təcili pul tələb edilməyib və müalicəsi klinika hesabına aparılır. Xəstə yaxınlarının klinikadan istər maddi baxımdan, istərsə də xidmətlə əlaqədar şikayəti yoxdur. Xəstəni əməliyyat edən və reanimasiya şəraitində müalicəsinə nəzarət edən həkimlər öz işlərində mütəxəssisdirlər və yaşanmış hadisədə hər hansı bir həkim səhvindən söhbət gedə bilməz. İstənilən araşdırmanın aparılması üçün klinikamız şərait yaratmağa hazırdır".

# Müğənni Elnarədən "Baku Medical Plaza"ya ağır ittihamlar - klinikanın cavabı necə oldu?

*"Baku Medical Plaza" - Aysel Rizayeva: "Baku Medical Plaza" öz işgüzar nüfuzunu qorumaq üçün prosessual addımlar atmaq məcburiyyətindədir"*

A.Rizayevanın sözlərinə görə, 17 illik evlilik müddətində övladı olmayan L.Şirəliyeva məhz klinikada aparılmış müalicə nəticəsində hamilə qalıb, mart ayının 12-də qeysəriyyə əməliyyatı olub: "Əməliyyatdan sonra Lətafət xanımın körpəsi kafi vəziyyətdə evə yazılıb. Təxminən 10 gün sonra Lətafət Şirəliyeva həkiminə zəng edərək qarın nahiyəsində ağrılarının olduğunu dedikdə, həkim onun klinikaya gəlməsini deyib. Xəstənin sözlərinə görə, bu ağrıların qeysəriyyə sonrası normal hal olduğunu düşünərək ağrıkəsici dərmanlardan istifadə edib. Xəstə klinikaya müraciət etdikdə ona ağrının səbəbini dəqiq müəyyən etmək üçün MRT müayinəsindən keçməsi məsləhət görülüb. Məlumat üçün bildirim ki, klinikamızda MRT müayinəsi öncədən yazılmaq və ya canlı növbə qaydası ilə həyata keçirilir. Hər müayinənin müddəti təxminən 40-50 dəqiqə olduğundan, müayinəyə girmək üçün növbə gözləmək zərurəti yaranır. Lakin xəstə növbə gözləmək istəmədiyi üçün, müayinədən imtina edərək klinikadan gedib. 3 gün sonra yenidən həkiminə zəng edərək temperaturun olduğunu dedikdə, həkim onun dərhal müayinə olunmalı olduğunu bildirib. Lətafət Şirəliyeva aprelin 3-də klinikaya gəldikdə KT müayinəsi nəticəsində appendisitinin partladığı, infeksiyanın orqanlarına yayıldığı və sepsis olduğu aşkarlanıb. Dərhal reanimasiya şöbəsinə yerləşdirilib. Təcili cərrahiyyə əməliyyatı olunaraq abseslər təmizlənib, drenaj qoyulub. İnfeksiya nəticəsində bağırsaqlarında çürümə prosesi getdiyi üçün, aprelin 8-də ikinci dəfə əməliyyat olunaraq bağırsaq möhtəviyyatın xaric edilməsi təmin edilib və stoma çıxarılıb. Peritonit, septik şok, kəskin tənəffüs çatışmazlığı, ağ ciyərlərin kəskin respirator distressindromu diaqnozları ilə reanimasiyaya yerləşdirən L.Şirəliyevanın vəziyyəti kritik olsa da, keçirdiyi cərrahiyyə əməliyyatından sonra orqanlarının vəziyyəti bərpa edilib. Lakin xəstənin immun sistemi zəiflədiyindən, hazırda immun sisteminin qaldırılması və qan dəyərlərin normallaşdırılması istiqamətində tibbi protokollara uyğun müalicə davam edir, xəstəyə immunoqlobin tətbiqinə başlandı. Xəstənin vəziyyətini dəyərləndirmək üçün klinikamızın və ölkənin bu sahə üzrə digər mütəxəssis həkimləri ilə konsiliumlar keçirilir. Xəstə hazırda reanimasiyadadır. Septik şok davam edir. Vəziyyəti son dərəcə kritik ağır olsa da, klinikamızın bütün tibb personalı L.Şirəliyevanın səhhətinin yaxşılaşması üçün əllərindən gələni etməkdədirlər".

A.Rizayeva onu da vurğuladı ki, xəstənin müalicəsinin davam etdirilməsi üçün yaxınlarından 37.000 manat pul tələb edilməsi yalandır. Bəzi saytların belə xəbərləri dəqiqləşdirmədən ictimailəşdirməsi təəssüf doğurur: "Baku Medical Plaza" öz işgüzar nüfuzunu qorumaq üçün prosessual addımlar atmaq məcburiyyətindədir".

*Günel CƏLİLOVA*

# İnsan alveri cinayətinin kökünü tam kəsmək mümkünmü - Azərbaycan mühitində...

**Bütün dünyanı narahat edən məsələlərdən biri də insan alveridir. Təəssüf ki, insan alverinin ölkəmizdə qarşısının alınması istiqamətində işlət aparılsa da, hələ də bu problem yaşanır. Milli Məclisin iclasında Azərbaycanın İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorunun illik məlumatı dinlənib.**

*"Qurban hərtərəfli zərər görmüş şəxsdir, onun həm tibbi, həm də psixoloji problemləri ola bilər"*

Daxili işlər nazirinin birinci müavini V.Eyvazov qeyd edib ki, ötən il həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə 144 insan alveri cinayəti qeydə alınıb, 28 nəfərdən ibarət 13 cinayətkar qrup zərərsizləşdirilib, axtarış elan olunmuş 51 təqsirləndirilən şəxsdən 66,6 faizi və ya 34-ü tutulub: "İnsan alveri və məcburi əmək cinayətlərinə görə başlanmış cinayət işlərindən 27-nin istintaqı tamamlanaraq 34 təqsirləndirilən şəxs (29-u qadın, 5-i kişi) məhkəmə məsuliyyətinə verilib, 23 insan alverçisi barədə ittihamedici hökmlər çıxarılıb. Müəyyən edilən 98 insan alveri qurbanından (82 qadın və 16 kişi, hamısı Azərbaycan Respublikasının vətəndaşıdır) 71-i istismar məqsədilə Türkiyə Respublikası, 20-si Rusiya Federasiyası, 3-ü İran İslam Respublikasına aparılıb, 2-si isə Birləşmiş Ərəb Əmirliklərində, 1-i Malayziyada, 1-i isə Azərbaycanda istismara məruz qalıb. Zərərçəkənlərdən 95-i Daxili İşlər Nazirliyinin sığınacağına yerləşdirilərək hər birinə tibbi, psixoloji, hüquqi yardımlar göstərilib, 61-i sosial xidmətlərlə əhatə olunması məqsədilə qeyri-hökumət təşkilatlarına, 92-si Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İnsan alveri qurbanları üçün Yardım Mərkəzinə istiqamətləndirilib. Nəticədə onlardan 32-si işlə təmin edilib, 46-sı peşə kursuna göndərilib, 69-u ailələrinə qaytarılıb, eləcə də hər birinə 400 manat məbləğində birdəfəlik müavinət ödənilib. Qurbanların övladları da diqqət mərkəzində saxlanaraq 25 uşaq məktəbəqədər təhsil proqramına yönəldilib, 16-nın atalığı müəyyən edilərək alimentlə təmin olunması, 13-nə lazımi sənədlərin alınmasında köməklik edilib".

Bu sahədə işlər görülməsinə baxmayaraq, insan alveri probleminin hələ də qeydə alınması səbəbləri barədə mütəxəssislərə müraciət etdik.

**"Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova "Bakı-Xəbər"ə açıqlamasında qeyd edti ki, Azərbaycanda insan alverinə qarşı mübarizədə bütün fəaliyyətlər beynəlxalq standartlara uyğunlaşdırılıb:** "İnsan alveri qurbanlarının hüquq və azadlıqları, onların hüquqlarının müdafiəsi, xidmətlər kifayət qədər təkmilləşib."

Onun fikrincə, ölkədə əsasən cinsi istismar və əməyin istismarı nəticəsində yaranan qurbanlar var: "Məsələn, əvvəllər Dubaya gedənlər çox idi, indi bu hal yoxdur. Amma əvəzində Türkiyəyə gedənlərin sayı çoxalıb. Bu da insan alverçilərinin az xərclə böyük məbləğ əldə etmək istəyi ilə bağlı ola bilər. Hər iki sahədə qurbanların müəyyən edilməsi, onları istismara məcbur edənlərin müəyyənləşdirilməsi və cinayət işinin qaldırılması, qurbanlara yardım göstərilməsi istiqamətində işlər aparılır. Artıq neçə ildir yalnız qurbanlar deyil, potensial qurbanlar da bu xidmət paketindən istifadə edirlər. Bunlar həssas vəziyyətdə olan uşaqlar, küçədə yaşayan uşaqlar, o cümlədən, miqrasiya edənlərdir. Hətta məişət zorakılığı, gender qurbanları da bu kateqoriyaya aid edilib dəstək ala bilirlər".

**Mehriban Zeynalova:** *"Ölkədə əsasən cinsi istismar və əməyin istismarı nəticəsində yaranan qurbanlar var"*




M.Zeynalovanın sözlərinə görə, insan alveri qurbanlarının reinteqrasiyası məsələlərində problemlər hələ də yaşanır: "İnsan alveri qurbanlarının sosial yardım alma, məşğulluq problemlərinin həlli mexanizmləri işlənməlidir".

Həmsöhbətimiz onu da vurğuladı ki, iqtisadi problemlərin müxtəlif kriminal xarakterli fəsadları olub, olacaq da: "Təbii ki, insan alveri yenidən gündəmə gələcək, hətta qadın alverinin yeni formalarının da ortaya çıxacağı deyilir. Hesab edirəm ki, uşaq oğurluğu daha çox uşaqları oğurlayıb pul tələb etməklə müşahidə oluna bilər. Bu isə uşaq alveri deyil. Uşaq alveri uşaqların ölkə xaricinə çıxarılaraq istismar edilməsidir. Hazırda isə bu mümkün deyil. Çünki uşaqları ölkə xaricinə aparmaq elə də asan proses deyil. Hətta uşağın bir valideyni digərinin razılığı və etibarnaməsi olmadan onu ölkə xaricinə çıxara bilməz. Bu məsələ qanunla tənzimləndiyi üçün, belə bir halın baş verməsi mümkün deyil".

M.Zeynalovanın fikrincə, hamı insan alverindən zərər çəkənlərin günahkar, cinayətkar deyil, sadəcə, qurban olduqlarını anlamalıdır. Əks halda, stereotip dəyişməyincə, insan alveri qurbanlarının təkrar qurbana çevrilmək təhlükəsi də ola bilər, uzun müddət qurban kimi yaşadıqdan sonra insan alverçisinə çevrilib bu sahədə fəaliyyət göstərmək məsələləri də. Ona görə də ekspert hesab edir ki, bu stereotiplərin dəyişməsinə çalışmaq lazımdır. Ancaq hələlik bu istiqamətdə Azərbaycanda vəziyyət o qədər də ürəkaçan deyil: "Qurban hərtərəfli zərər görmüş şəxsdir, onun həm tibbi, həm də psixoloji problemləri ola bilər. Qurbanların hansı şəraitdə çalışdıqlarını, hansı təzyiqlərlə qarşılaşıb nələrə dözməli olduqlarını, xaricə təhsil, iş, nikah dalınca getdikləri bir halda əxlaqsız həyat tərzinə sürüklənmək kimi faktın peyda olduğunu düşündükdə bunun nə qədər çətin olduğunu anlamaq mümkündür. Gənc qadın bəzən məlumatsızlığı ucbatından qarşıda onu nələrin gözləyə biləcəyini təxmin belə etmir. Bura insan alverçisinin peşəkarlığını, öz qurbanlarını yoldan çıxarmaq üçün istifadə etdiyi fəndləri də əlavə etsək, təcrübəsiz, çarəsiz qadının düşə biləcəyi vəziyyəti təsəvvür etmək olar. O, qurbana çevrilir və daha sonra özünə qarşı münasibətin qurbana olan münasibət kimi yox, fahişəyə olan münasibətdən heç nə ilə fərqlənmədiyini görür. Təbii ki, bu həmin qurbanda daha böyük psixoloji problemlər yarada bilər".

***Günel CƏLİLOVA***

# Vergilər Nazirliyinin daha bir iri islahatı - şikayətçi sahibkarların işi məhkəməyə getmədən həll olunacaq

**Mayın 3-də Vergilər Nazirliyində kütləvi informasiya vasitələri üçün brifinq keçirilib. Brifinqdə Vergilər nazirinin müşaviri Elçin Məmmədov mövcud beynəlxalq təcrübəyə əsaslanmaqla Azərbaycanda Vergi Ombudsmanı İnstitutunun yaradılması və fəaliyyətə başlaması barədə məlumat verib.**




*Elçin Məmmədova əlavə vəzifə səlahiyyəti verildi*

Bildirilib ki, vergi ödəyicilərinin hüquqlarının daha etibarlı qorunmasını təmin etmək məqsədilə Vergilər nazirinin əmri ilə Vergilər Nazirliyində Vergi Ombudsmanı İnstitutu yaradılıb. Bu institut vergi ödəyicilərinin müraciətlərinin məhkəmə müstəvisinə çıxmadan çevik həllinə nail olacaq və vergi orqanları ilə münasibətlərin qarşılıqlı əməkdaşlıq formasında tənzimlənməsinə kömək göstərəcək.

Qeyd olunub ki, Vergilər nazirinin növbəti əmri ilə bu günlərdə vergi ombudsmanının fəaliyyət istiqamətləri, hüquq və vəzifələrini müəyyən edən "Vergi ombudsmanı haqqında Əsasnamə" təsdiq edilib. Həmin əmrlə Vergilər nazirinin müşaviri Elçin Məmmədov vergi ombudsmanı təyin edilib.

Bildirilib ki, apelyasiya kommunikasiyalarının çoxluğu sahibkarın müraciətlərinə və şikayətlərinə ədalətli baxılması imkanlarını artırır. Vergi Ombudsmanı İnstitutunun yaradılması ilə vergi ödəyiciləri ilə üfüqi əməkdaşlıq platforması genişləndirilib və vergi ödəyiciləri yeni bir apelyasiya mexanizmi əldə ediblər.

E.Məmmədov qeyd edib ki, Vergilər Nazirliyinin əsas məqsədi vergi ödəyicilərinin baxılmamış, ədalətli araşdırmaya cəlb edilməmiş hər hansı müraciətinin qalmamasıdır. Ombudsman bu işdə onlara yardım edəcək, hüquqi müdafiəsini təmin edəcək, müraciətlərə ədalətli baxılmasını mövqeyindən çıxış edəcəkdir. Bu, həmçinin, vergi əməkdaşlarının qəbul etdikləri qərarlara görə məsuliyyət daşımasına da böyük təsir göstərəcəkdir.

Brifinqdə vergi ombudsmanının hüquq və vəzifələri, fəaliyyət istiqamətləri haqqında da məlumat verilib. Bildirilib ki, o, Vergilər nazirinin əmri ilə təyin edilən, bilavasitə nazirə tabe olan və ona hesabat verən şəxsdir.

Ombudsmanın əsas fəaliyyət istiqaməti vergi ödəyicilərinin hüquqlarının pozulmasının qarşısının alınması və pozulmuş hüquqların bərpasıdır.

Brifinqdə KİV nümayəndələrinin sualları cavablandırılıb.

***Baki-xeber.com***

# Qoruqların ərazisindəki tarixi abidələrin pasportlaşdırılmasının hansı ümummilli əhəmiyyəti olacaq?

## *Kənan Quluzadə: "Bizim qurumun tabeliyində 7 qoruq ərazisi var və pasportlaşdırma da bu qoruqlarda həyata keçiriləcək"*

**Tarixi abidələr xalqımızın mədəni irsinin əsasını təşkil edir. Bu gün Azərbaycanın hər bir yerində tarixi-arxeoloji abidələr kifayət qədərdir. Lakin indiyə qədər aidiyyəti qurumlar tərəfindən abidələrin tam olaraq siyahıya alınma prosesi həyata keçirilməyib.**

Mütəxəssislərin bildirdiyinə görə, hazırda reyestrə salınmayan saysız abidəmiz var ki, bu abidələrin də xeyli hissəsi sakinlərin həyətyanı təsərrüfatlarında yerləşir. Bu da çox zaman onların diqqətdən kənarda qalması ilə nəticələnir.

Bəzən bildirilir ki, Azərbaycanda 3 mindən artıq müxtəlif profilli abidə qeydə alınıb. Bu gün, ümumiyyətlə, qeydiyyata alınan abidələrin tam siyahısı haqqında birmənalı məlumat yoxdur.

Kiçik araşdırmamız zamanı əldə etdiyimiz məlumata görə, Azərbaycanda qeydiyyata alınmış dünya əhəmiyyətli memarlıq abidələrinin sayı 21, dünya əhəmiyyətli arxeoloji abidələrin sayı 44, ölkə əhəmiyyətli memarlıq abidələrinin sayı 141, ölkə əhəmiyyətli arxeoloji abidələrin sayı 52, ölkə əhəmiyyətli bağ-park, monumental və xatirə abidələrinin sayı 59, yerli əhəmiyyətli memarlıq abidələrinin sayı 156, yerli əhəmiyyətli arxeoloji abidələrin sayı isə 4-dür. Əlbəttə, bu indiyə qədər siyahıya alınan və alınmayan abidələrin tam mənzərəsini əks etdirmir.

Azərbaycanda bir sıra qoruqlar fəaliyyət göstərir ki, həmin qoruqlarda da müxtəlif dövrlərə aid abidələr yerləşir.

Məlum olduğu kimi, Dövlət Turizm Agentliyinə qoruq ərazilərindəki tarixi abidələri pasportlaşdırmaq səlahiyyəti verilib. Bu, Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə"yə dəyişiklik edilməsi haqqında Fərmanda öz əksini tapıb. Fərmana yeni əlavə edilən 3.0.45-1-ci yarımbəndinə əsasən, Dövlət Turizm Agentliyinin vəzifələri sırasına qoruqların ərazilərində yerləşən tarix və mədəniyyət abidələrini siyahıya və dövlət qeydiyyatına almaq, pasportlaşdırılmasını həyata keçirmək aid edilib

Dövlət Turizm Agentliyi (DTA) hansı qoruqlardakı abidələrin pasportlaşdırılmasını həyata keçirəcək?

**Dövlət Turizm Agentliyinin mətbuat xidmətinin rəhbəri Kənan Quluzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu qurum yalnız öz nəzdində olan qoruqlardakı abidələri pasportlaşdıracaq.** K.Quluzadənin sözlərinə görə, Turizm Agentliyinin nəzdində 7 qoruq var. "Bizim qurumun tabeliyində 7 qoruq ərazisi var və pasportlaşdırma da bu qoruqlarda həyata keçiriləcək. Bundan əlavə, ötən ilin dekabrında cənab Prezidentin qərarı ilə Dövlət Turizm Agentliyinin tabeliyində Qoruqları İdarəetmə Mərkəzi yaradılıb. Bu 7 qoruğun həmin mərkəz tərəfindən idarə olunması nəzərdə tutulur, onun strukturu təsdiqlənib. Burada, ilk növbədə, mədəni-tarixi irsin saxlanması, ikincisi, qoruqların turistlər üçün daha cəlbedici edilməsi, üçüncüsü isə dövlət xərclərinin optimizasiyası nəzərdə tutulur. Bilirsiniz ki, cənab Prezidentin sərəncamı ilə Prezidentin ehtiyat fondundan ayrılan maliyyə ilə Yanardağda yenidənqurma və bərpa işləri aparılıb. Bu ay yeni konsepsiyada Yanardağı təqdim edəcəyik. Bundan başqa, ölkə rəhbərliyinin tapşırığına əsasən, Şəki "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu, "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu ilə bağlı xüsusi konsepsiyalar hazırlanır. Basqalın təqdimatının bu günlərdə kçiriləcəyi gözlənir, Şəkidə isə bu yöndə işlər görülür".

K.Quluzadə qeyd etdi ki, Dövlət Turizm Agentliyinin tabeliyindəki qoruqlar "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu, "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu,

"Lahıc" Dövlət Tarix-Mədəniyyət Qoruğu, "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu (Şəki şəhəri "Karvansaray" mehmanxana kompleksi daxil olmaqla), "Kiş" Tarix-Memarlıq Qoruğudur.

Dövlət Turizm Agentliyinin qoruq ərazilərindəki tarixi abidələri pasportlaşdırması istiqamətində görüləcək işlərə gəlincə, K.Quluzadə qeyd etdi ki, ilk növbədə, tarixi abidələrin invertarlaşdırılması keçirilir. "İnvertarlaşdırmadan sonra istifadə qaydaları hazırlanır. Bu istiqamətdə ki, dövlət təşkilatları, bələdiyyə qurumları, yerli əhali və s. tarixi abidələrin istifadəsində və qorunmasında hansı fəaliyyəti göstərə bilərlər. Belə bir məsələ var, Şəkidəki "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisndə yaşayan əhalinin sayı 14 min nəfərə yaxındır və oradakı tarixi abidələrin yarıdan çoxu fərdi təsərrüfatların ərazisində yerləşir. Bundan necə istifadə edilməsi ilə bağlı instruksiya hazırlanır. Birinci növbədə bu, mədəni irsin qorunması ilə bağlıdır. Yəni turistin gəlib-gəlməməsindən asılı olmayaraq, biz tarixi mədəni irsimizi qorumalıyıq. Digər məsələ də qoruqların turistlər üçün daha cəlbedici olmasıdır. Biz qoruqlarda yeni infrastruktur yaradırıq, burada turistlər üçün daha çox məlumat almaq imkanı olsun, rahatlıqları təmin olunsun, əyləncələrin sayı artsın. Burada, əlbəttə ki, dövlət büdcəsinin xərclərinin optimallaşdırılması da əsas götürülür. Bu qoruqların hamısı turistik məkandır, burada girişin ödənişli olması, bilet satılması məsələləri və s. var. Ordan əldə edilən gəlir hesabına isə qoruqların qismən də olsa özünümaliyyələşdirilməsinə nail olmaq nəzərdə tutulur".

"İndiyə qədər agentliyin tabeliyində olan qoruqlardakı abidələrin siyahıya alınması ilə bağlı hər hansı bir addım atılıbmı"sualına cavabında K.Quluzadə bildirdi ki, buradakı abidələrin siyahıya alınması prosesi həyata keçirilib: "Qoruqların ərazisində yerləşən abidələrin siyahıya alınması prosesi həyata keçirilib. Abidələrin sayına gəlincə, bu barədə məndə konkret rəqəm yoxdur".

Əldə etdiyimiz məlumata görə, hazırda "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində dövlət qeydiyyatına alınan dünya, ölkə və yerli əhəmiyyətli 25 tarixi-memarlıq, arxeoloji və park-monumental abidələr mövcuddur. "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunda 23 tarix-mədəniyyət abidəsi var. Digər qoruqlarla bağlı məlumat əldə edə bilmədik.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, arxeoloq Aida İsmayılova bizimlə söhbətində bildirdi ki, Dövlət Turizm Agentliyinə qoruq ərazilərindəki tarixi abidələri pasportlaşdırmaq səlahiyyəti verilməsi müsbət bir haldır. O hesab edir ki, agentlik tərəfindən qoruqlarda mövcud olan abidələrin siyahıya alınaraq pasportlaşdırılmasının həm milli-mədəni, həm də tariximizin, maddi dəyərlərimizin öyrənilməsi və təbliği baxımından böyük əhəmiyyəti var. "Qoruqların ərazisində olan bütün abidələr pasportlaşdırılacaqsa, bu olduqca böyük əhəmiyyətə malik olacaq. Bunun nəticəsində bilinəcək ki, bu abidələr hansı dövrə aiddir, vəziyyəti necədir, onun konservasiyaya ehtiyacı var, yoxsa yoxdur. Əgər varsa, onu konservasiya edəcəklər. Qoruq ərazilərindəki abidələrin pasportlaşdırılacaq artıq onun dövlət qeydiyyatında olduğunu bildirəcək. Pasportlaşdırılma nəticəsində abidələrin diqqətdən kənarda qalması məsələsi aradan qaldırılacaq, abidələrin siyahıya alınması məsələsi aktuallaşacaq. Bu həm də abidələtin turizm baxımından əhəmiyyətini göstərəcək. Düşünürəm ki, qoruqlardakı abidələrin dövlət qeydiyyatına alınmasının, pasportlaşdırılmasının həm turizm, həm gələcəkdə onların tanıdılması, həm də maddi-mədəni irs nümunəsi olaraq qorunması baxımından çox böyük əhəmiyyəti var. Eyni zamanda, buradakı abidələrin respublika, regional və dünya əhəmiyyətli olması məsələsi də aydınlaşacaq və qiymətləndiriləcək. Sonradan onların qorunması, lazımi siyahılara salınması məsələsi öz həllini tapa bilər" - deyə A.İsmayılova qeyd etdi.

***İradə SARIYEVA***



*"Qoruqların ərazisində yerləşən abidələrin siyahıya alınması prosesi həyata keçirilib"*

*Aida İsmayılova "... maddi-mədəni irs nümunəsi olaraq qorunması baxımından çox böyük əhəmiyyəti var"*

№ 80 (3978) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

4-6 MAY 2019-cu il

www.baki-xeber.com



## Çilidә Misirdәki mumiyalardan da qәdim mumiyaları aşkarlandı

**Çilidә yerlәşәn dünyanın әn quraqlıq ərazisində - Atakama sәhrasında eramızdan әvvәl 7-5-ci minilliyә aid olan qәdim mumiyalar aşkar edilib.**

"AZƏRTAC" bildirir ki, burada yaşamış Çinçorro qәbilәsinә aid olduğu ehtimal edilәn bu mumiyaların yanında keramika mәmulatları da tapılıb. Bu arxeoloji tapıntıların tarixinin Misir ehramlarında olan mumiyalardan әn azı 2 min il qәdim olduğu bildirilir. Arxeoloqlar qeyd ediblәr ki, cәmiyyәtin elitasını - firon ailәsinin üzvlәrini mumiyalayan misirlilәrdәn fәrqli olaraq, Çilidәki bu böyük qәbilәdә duluşçuları vә digәr sadә insanları da hәmin prosedurdan keçirirmişlәr. Bu tapıntılardan sonra Çilinin hakimiyyәt strukturları onların Dünya Mәdәni İrs Siyahısına daxil edilmәsi üçün UNESCO-ya müraciәt edәcәklәrini bәyan ediblәr. Azapa vadisindәki San-Miquel kәndindә tapılan mumiyalar vә digәr tapıntılar ölkәdәki Arxeologiya Muzeyinә tәhvil verilib. Onların nümayiş etdirilmәsi ilә paralel olaraq, mumiyalar üzәrindә elmi, tәdqiqatlar da aparılır. Çilili alimlәr mumiyaların hazırlanması zamanı matәm ayinlәrinin icra edildiyi әşyaları da qiymәtli vә nadir arxeoloji tapıntılar kimi dünyadakı hәmkarlarına tәqdim edәcәklәr. Bundan başqa, yerli hakimiyyәt orqanları Çinçorro qәbilәsinin yaşadığı yerlәri turizm mәkanına çevirmәk niyyәtindәdir.

## Gürcüstanda süni әtdәn hazırlanan fәst-fud satılacaq

**"Burger Kinq" bu ilin sonlarından etibarәn Gürcüstanda sünii әtdәn hazırlanmış fәst-fud qidaları satacaq.**

"Axar.az" bildirir ki, bu barәdә ABŞ-da fәaliyyәt göstәrәn fast-fud şәbәkәsi "The Verge" mәlumat yayıb. Şirkәt sәbәb kimi Gürcüstandakı vegeterian müştәrilәrini razı salmağa çalışdığını bildirib. Vegeterian burgerlәrdә pendir vә әt yerinә noxud, soya, kartof, bitki yağı vә süni әtdәn istifadә edilәcәk. "Burger King"in baş ofisindәn burgerlәrin dad olaraq daha fәrqli olmayacağı bildirilib.

## Elan

"FLAME" MMC-nin adına olan, Quba rayonu, Qәçrәş kәndi ünvanında yerlәşәn, ümumi sahәsi 10.0 ha torpaq sahәsinә dair 303013004449 reyestr nömrәli, 2809000578 qeydiyyat nömrәli, 03.02.2009-cu il tarixli çıxarış itdiyi üçün etibarsız sayılır.

Sultanov İsaq Müseyib oğluna mәxsus, Bakı şәhәri, Sabunçu rayonu, Bilgәh qәsәbәsindә yerlәşәn 86 saylı bağ evinә verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Xәlilov Sabit Sәttar oğlunun adına, Kürdәmir rayonu, Atakişili kәndindә yerlәşәn torpaq sahәsinә, Atakişili kәnd bәlәdiyyәsi tәrәfindәn verilmiş torpaq sahәsinin dövlәt aktı (JN-0995 kod 90603018) itdiyi üçün etibarsız sayılır.

Mahmudov Mәmmәd Әlәddin oğlunun (AAN№0196391) adına, Gәncә RHK tәrәfindәn verilmiş MV №003482 Qarabağ müharibәsi veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

## Bu yaz Xiaomi smartfonu әldә et, "Azercell"dәn hәdiyyә qazan!

**Ölkәnin bütün bölgәlәrini yüksәk sürәtli mobil internetlә tәmin etmәyi hәdәflәyәn "Azercell", müştәrilәrinin istifadәsinә yazın әn sәrfәli fürsәti olan yeni smartfon kampaniyasını tәqdim edir.**




Abunәçilәri üçün әn son texnologiyaları dәstәklәyәn smartfonları daha da әlçatan etmәk mәqsәdilә yalnız iyun ayının 20-dәk "Azercell"dәn Xiaomi smartfonu alan hәr müştәriyә xüsusi hәdiyyәlәr tәqdim edilir. Belә ki, Xiaomi smartfonu әldә edәn bütün "Azercell" Fakturasız Xәtt abunәçilәrinә ödәnilәn mәblәğin 150 manatadәk dәyәri keşbәk olaraq 6 ay әrzindә hissә-hissә nömrәnin balansına qaytarılır. "Azercell" Fakturalı Xәtt abunәçilәrinә isә Xiaomi smartfonu aldıqda, 6 ay әrzindә aylıq 10GB hәcmindә mobil internet paketi nömrәnin balansına hәdiyyә olunur.

Bu yazın әn sәrfәli kampaniyası "Azercell"dә! "Azercell"dәn әn son model Xiaomi smartfonunuz ilә bu yaz sevdiklәrinizә bir zәng tәk yaxın olmaq fürsәtini qaçırmayın!

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## "Bakı Marafonu - 2019"da "Azercell" sağlam hәyat tәrzi ideyası әtrafında minlәrlә insanla hәmrәy olacaq

**Ölkәmizdә idmana olan marağı daha da artırmaq, cәmiyyәt arasında sağlam hәyatı tәbliğ etmәk vә minlәrlә insanı bu fikir әtrafında cәmlәmәk mәqsәdilә may ayının 5-indә Dövlәt Bayrağı Meydanından Bakı Olimpiya Stadionuna qәdәr 21 kilometrlik mәsafәni әhatә edәn "Bakı Marafonu - 2019" keçirilәcәk.**

"Külәyә Qalib Gәl" şüarı altında Heydәr Әliyev Fondunun tәşkilatçılığı ilә baş tutacaq bu marafon sayca dördüncüdür. Yalnız vәtәndaşlarımızın deyil, әcnәbilәrin iştirakçı qismindә qatıldığı bu genişmiqyaslı layihә hәr il minlәrlә insan tәrәfindәn böyük maraqla qarşılanır.

Yenilikçi tәşәbbüslәrin, sosial layihәlәrin hәm dәstәkçisi, hәm dә tәşkilatçısı olan "Azercell Telekom" MMC "Bakı Marafonu-2019"un eksklüziv tәrәfdaşıdır.

Dәnizkәnarı Bulvar İdarәsi, Bakı Olimpiya Stadionu, Nәqliyyat, Rabitә vә İnformasiya Texnologiyaları Nazirliyi, Tәhsil Nazirliyi, "Regional İnkişaf" İctimai Birliyi, elәcә dә AFFA vә SOCAR marafonun dәstәkçilәri qismindә çıxış edirlәr. Layihәnin icrasını isә "Sport Marketing Group" (SMG) şirkәti hәyata keçirir.

Rәqәmsal eranın tәlәblәrinә uyğun olaraq, builki marafonda bir yenilik tәtbiq edilib. Belә ki, iştirakçılar taymkiperlәrlә tәchiz olunub. Bu xüsusi çip sayәsindә iştirakçıların hәrәkәt istiqamәtini izlәmәk, finiş xәttini ilk keçәn şәxslәri dәqiq şәkildә tәyin etmәk, belәliklә dә yarışda şәffaflığı tәmin etmәk mümkün olacaq.

Qeyd etmәk istәrdik ki, müasir dünya cәmiyyәtindә gündәmdә olan sağlam hәyat tәrzi vә insan hәyatının keyfiyyәtinin artırılması ideyasının ölkәmizdә tәbliğ edilmәsinә öz Korporativ Sosial Mәsuliyyәt Strategiyasında xüsusi diqqәt ayıran "Azercell Telekom" MMC hәr kәsi bu fәlsәfәni yaşatmağa sәslәyir.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - Yalnız entuziazm vә qәtiyyәt sayәsindә uğur qazana bilәrsiniz. Hәtta, şәrait imkan vermәsә belә, siz mәqsәdinizә doğru gedir vә hamının tәәccübünә rәğmәn, ona çatırsınız. Nüfuzlu bir şәxin dәstәyini qazana bilәrsiniz.



**Buğa** - Parlaq, yaddaqalan, maraqlı hadisәlәrlә dolu gündür. İşlәriniz artır, gәrginlik çoxalır, amma bunların heç biri sizi tamamilә qorxutmur. Maraqlı tәklif ala bilәrsiniz, onları qәbul etmәyә dәyәr.



**Əkizlәr** - Bu gün öz işlәrinizi bir kәnara qoyub, başqalarının maraqlarını müdafiә edәcәk, әtrafınızdakıları sevindirәcәksiniz. Kimsә sizin xeyirxahlığınızdan sui-istifadә etmәyә çalışmayacaq, odur ki, insanlara yardım etmәk hәvәsinizi boğmayın.



**Xәrçәng** - Ehtiyacınız olan dәstәyi vaxtında alacaq vә onun sayәsindә bir çox problemlәrinizin öhdәsindәn gәlәcәksiniz. Ağlınızı işlәdәrәk cari mәsәlәlәrin öhdәsindәn tez gәlmәyin yolunu tapa bilәrsiniz.



**Şir** - Yaradıcı iş, qeyri-standart yanaşma tәlәb edәn mәsәlәlәrin hәlli üçün әla gündür. Orijinal ideyaları gerçәklәşdirmәk xoşunuza gәlir, cari işlәr isә sizi yorur, darıxdırır. İşgüzar danışıqlar yaxşı keçir, yeni tanışlarınızda dәrin tәәssürat oyadırsınız.



**Qız** - Düzgün yanaşma sayәsindә bir çox problemlәri hәll etmәk mümkün olacaq. Başqalarının әhәmiyyәt vermәdiklәri faktları, bütün işin gedişatına tәsir edә bilәcәk xırda detalları vaxtında görür vә düzgün qiymәtlәndirirsiniz.



**Tәrәzi** - Kölgәdә qalmağa can atmayın: bu gün nә qәdәr çox diqqәt cәlb etsәniz, bir o qәdәr yaxşıdır (özü dә tәk sizin üçün deyil). Nüfuzlu şәxslәrlә danışıqlar aparmaq, investor vә ya hami axtarmaq olar.



**Әqrәb** - Cari işlәrә diqqәt yetirmәk çәtindir: ürәyiniz böyük layihәlәr vә möhtәşәm qәlәbәlәr istәyir. Dәfәlәrlә hәr şeyә qadir olduğunuzu sübut etdiyiniz adamlar bu işdә sizә yardımçı ola bilәrlәr.



**Oxatan** - Kütlә qarşısında çıxışlar, işgüzar danışıqların aparılması üçün münasib gündür. Әgәr iş axtarırsınızsa, bu gün potensial sahibkarlarla görüş üçün çox әladır: onlarda lazımi tәәssürat oyada bilәrsiniz.



**Oğlaq** - Mәqsәd vә prioritetlәrinizi dәqiqlәşdirmәdәn heç bir addım atmayın. Xırdalıqlara çox vaxt sәrf edir, vacib olanları isә diqqәtdәn qaçırırsınız. Şәxsi münasibәtlәrdә ciddi dәyişikliklәr gözlәnilmir.



**Dolça** - Peşәkar mәsәlәlәr xeyli güc tәlәb edir. Ancaq nә vaxtsa yardım etdiyiniz insanlar kömәyinizә gәlәcәklәr. İşlәriniz çox olsa da, qeyri-formal ünsiyyәt üçün dә vaxtınız qalacaq.



**Balıqlar** - Mürәkkәb mәsәlәlәr hәllini gözlәyir, siz dә tәrәddüdsüz bunları bir-bir aradan qaldırmağa girişirsiniz. Özünüzә inamınızın әsası var - doğrudan da, indi hәr şeyә qadirsiniz.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Mәrakeşdә keçirilәn marafonun qalibi it oldu

**Mәrakeşin cәnubunda dünyada әn mürәkkәb marafonlardan biri sayılan "Marathon des Sables" yarışları başa çatıb.**

"AZƏRTAC" bildirir ki, marafonun iştirakçıları altı gün әrzindә 250 kilometr mәsafә qәt ediblәr. Marafonun baş qәhrәmanı isә haradan gәlmәsi mәlum olmayan "Kaktus" lәqәbli it olub. İkinci mәrhәlәdә qaçışçılara qoşularaq bu günlәr әrzindә tәqribәn 241 kilometr qaçmış "Kaktus"un sәylәri medal ilә mükafatlandırılıb. "Marathon des Sables" yarışları altı mәrhәlәdәn ibarәtdir. Bu günlәr әrzindә havanın hәrarәti gündüz 40 dәrәcәyә çatır, gecә isә xeyli soyuq olub. Digәr qaçışçılar vә marafonun tәşkilatçıları yürüş müddәtindә "Kaktus"u su vә yemәklә tәchiz ediblәr, gecәlәr isә digәr iştirakçılarla bәrabәr o da düşәrgәdә istirahәt edib. Marafonun әn uzun hissәsi olan 71 kilometrlik mәrhәlәdә "Kaktus"un halı pislәşsә dә, bir qәdәr dincәlәndәn sonra yoluna davam edib. Bütün mәrhәlәlәr başa çatandan sonra hәkimlәr itin sağ-salamat olmasını tәsdiqlәyiblәr. "Kaktus"un sahibi Karen Hedfild bildirib ki, bu it Berberlәrin yaşadığı sәhra rayonunda hәr gün 40 kilometr yol gedir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.